QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 031 (5751) **15 fevral** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Dövlət başçısının regionlara hər səfəri sosial rifahın daha da inkişafına doğru atılan uğurlu addımdır

*İlham Əliyev: "Mən həmişə xalqın dəstəyinə arxalanmışam, mənə güc verən xalqın mənə olan inamıdır"*



Səh 2


**Ali məktəb tələbələri üçün Prezident təqaüdünün məbləği artırıldı**



3

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Gəncə şəhərinə səfər edib**



4

**Elmar Məmmədyarov Almaniyaya gedib**



3

**Oksana Puşkina: "Heç bir ölkədə Azərbaycandakı kimi füsunkar, güclü və müstəqil qadınlar görməmişəm"**



3

**"İkram Rəhimov tək deyil, onun ətrafında olan adamlar da var"**



7

**"Sosial müavinətlərin məbləğinin artırılması ilə bağlı iş aparılır"**



8

9

**"Prezidentin Azərbaycan insanına olan münasibəti hər kəs üçün nümunədir"**



7

**"İkram Rəhimovun adının jurnalistika ilə qoşa çəkilməsi absurddur"**



12

**"Şahsevən Kredit İttifaqı" MMC-nin vəzifəli şəxslərinin qanunsuz əməlləri ifşa edildi**



# Dövlət başçısının regionlara hər səfəri sosial rifahın daha da inkişafına doğru atılan uğurlu addımdır

*İlham Əliyev: “Mən həmişə xalqın dəstəyinə arxalanmışam, mənə güc verən xalqın mənə olan inamıdır”*

***Regionlarımızın günbəgün inkişaf etməsi uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi olduğunu təsdiq edən ən mühüm amildir. Regionların sosial-iqtisadi inkişafı sahəsində qəbul edilən və uğurla həyata keçirilən dövlət proqramlarında, habelə, regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı Prezident İlham Əliyevin imzaladığı sərəncamlarda nəzərdə tutulan vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə təkan verir.***



Ən mühüm məsələ isə, Prezident İlham Əliyevin, mütəmadi olaraq, bölgələrə səfər etməsi və səfərləri çərçivəsində müxtəlif təyinatlı infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimlərində iştirakı, müəssisələrin fəaliyyəti ilə yaxından tanış olması, eləcə də, ictimaiyyətlə keçirdiyi görüşlərdə qaldırılmış məsələlərin həlli məqsədilə vəsaitin ayrılması regionların inkişafına göstərdiyi diqqətin bariz nümunəsidir. Xüsusi olaraq, vurğulamaq lazımdır ki, son illər ərzində, ölkəmizin sosial-iqtisadi inkişafı istiqamətində böyük məsafələr qət edən, xalqa verdiyi vədi yerinə yetirən və Ulu Öndər Heydər Əliyev siyasi kursunun alternativsizliyini ortaya qoyan ölkə başçısı İlham Əliyevin, müntəzəm olaraq, regionlara səfərləri zamanı insanlarla həmişə təmasda olması, sıravi adamlarla, ziyalılarla, gənclərlə görüşləri Ona öz işini səmərəli qurmaqda, nöqsanları aradan qaldırmaqda, qarşıya yeni vəzifələr qoyub, həyata keçirməkdə imkanlar yaradır və hakimiyyətlə xalqın birliyini möhkəmləndirir.

Məhz bunun nəticəsidir ki, son 15 ildə həyata keçirilən məqsədyönlü islahatlar, bir sıra ümummilli proqramlar, mühüm infrastruktur layihələrin uğurla reallaşdırılması ölkəmizin sosial-iqtisadi mənzərəsini xeyli dərəcədə dəyişmiş, tarazlı inkişaf və davamlı yüksəliş üçün möhkəm əsas yaratmışdır.

### Xalq-iqtidar birliyi dövlət başçısına inamın məntiqi nəticəsidir

Bu real fakt Prezident İlham Əliyevin Azərbaycanın şəhər və rayonlarına hər bir səfəri və bu səfərlər zamanı insanlarla görüşü, onların qayğı və problemlərinə həssas münasibətin nümayişinə çevrilir. Bütün bunlarla yanaşı, dövlət başçısının cəmiyyətin sosial sifarişinə uyğun çevik qərarlar qəbul etməsi, problemlərə böyük həssaslıqla yanaşması, daim ictimaiyyət arasında olması cəmiyyətin, nəinki tərəqqisini, həm də xoş ovqatını təmin edən mühüm cəhətlərdir. Ötən illər ərzində, ölkəmizin sosial-iqtisadi inkişafı istiqamətində böyük məsafələr qət edən, xalqa verdiyi bütün vədləri yerinə yetirən dövlətimizin başçısı İlham Əliyev hər bir addımda vətəndaşların mənafeyinin qayğısına qalması əsas amillərdəndir.

Elə bu günlərdə regionlara növbəti səfərləri çərçivəsində Prezident İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva Beyləqan rayonunda olub və səfər bir sıra sosial-iqtisadi təyinatlı obyektlərin açılışı ilə əlamətdar olub.

### Prezident İlham Əliyev: “Mən həmişə xalqın dəstəyinə arxalanmışam, mənə güc verən xalqın mənə olan inamıdır”

Bunu Azərbaycan Prezidenti İlham Əliyev Beyləqan rayonunun sakinləri ilə görüşündə deyib. Dövlətimizin başçısı qeyd edib: “Mən Beyləqana altıncı dəfədir ki, gəlirəm və hər bir səfərdə gözəl açılışlar, gözəl tədbirlər olur. Bu gün də belədir. Misal üçün bu gün böyük idman mərkəzinin açılışını etdik. Burada idmanla məşğul olmaq üçün gözəl şərait yaradılıb. Yeni yarımstansiya işə düşür, yeni yolun açılışını etdik. Beyləqan rayonunun ümumi inkişafı ilə bağlı ardıcıl tədbirlər görülür. Qazlaşdırma, bir müddətdən sonra 100 faizə çatacaq, indi 97 faizdir. Şəhərin içməli su layihəsi icra olunub”.

Dövlət başçısı bildirib ki, Dünyamalılar kəndində yeni məktəb binası tikiləcək: “Mən artıq bunu dedim, bir daha demək istəyirəm ki, Dünyamalılar kəndində yeni məktəb tikiləcək, çünki həmin məktəbin vəziyyəti o qədər də yaxşı deyil. Yataqxanalarda yaşayan vətəndaşlar üçün 36 mənzilli yeni bina tikiləcək. Növbəti mərhələdə yeni kənd yolları da salınacaq”.

Prezident deyib ki, Beyləqanda 3 aqropark fəaliyyət göstərir və orada məhsuldarlıq yaxşıdır, pambıqçılığın ənənələri bərpa olunur: “Ulu Öndərin vaxtında burada çox bol pambıq yığılırdı, yavaş-yavaş o həddə yaxınlaşırıq. Keçən il təqribən 22 min ton pambıq tədarük edilmişdir. Ancaq əlbəttə ki, biz o səviyyəyə çatmamışıq, tədricən buna da, inşallah, çatarıq. Məşğulluqla bağlı da göstəriş vermişəm, yüzlərlə yeni ödənişli ictimai iş açılsın ki, hələlik, iş tapa bilməyən vətəndaşlar ictimai işlərlə məşğul olsunlar”.

Beyləqan Olimpiya İdman Kompleksinin açılışında iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev idmançılarla və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə çıxış edərkən deyib: “Bu gün Beyləqan rayonunda çox əlamətdar bir gündür. Beyləqanda Olimpiya İdman Kompleksi açılır. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Çox gözəl idman mərkəzidir. Burada idmanla məşğul olmaq üçün bütün şərait var. Bu mərkəzin həm xarici görünüşü, həm də daxili tərtibatı çox gözəldir. Məşq zalları, cüdo, güləş, boks üzrə xüsusi məşq zalları, üzgüçülük hovuzu, böyük idman salonu, stadion. Eyni zamanda, bu mərkəzdə 50 nəfərlik otel də yerləşir. Beləliklə, Beyləqana gələn qonaqlar burada rahat qala bilərlər”.

Prezident bildirib ki, bütün bölgələrdə bu istiqamətdə işlər gedir: “Bu il əlavə iki Olimpiya İdman Mərkəzinin açılışı gözlənilir. Yeni Azərbaycan dövləti bu istiqamətdə öz siyasətini aparır. Bunun nəticəsində bizim idmançılarımız beynəlxalq yarışlarda, dünya, Avropa çempionatlarında, Olimpiya Oyunlarında yüksək nəticələr qazanırlar. Hər bir Azərbaycan vətəndaşı fəxr edir ki, idmançılarımız bu gün dünya miqyasında ən yüksək zirvədədirlər. Bunu Olimpiya Oyunları da göstərir. Keçən Yay Olimpiya Oyunlarında medalların sayına görə bizim komandamız dünya miqyasında 14-cü yerdə idi. Bu, tarixi bir qələbədir. Çünki biz bir çox inkişaf etmiş ölkələri qabaqlamışıq. Dünya və Avropa çempionatlarında da bizim idmançılarımız ən yüksək nəticələr göstərərək, bayrağımızı zirvələrə qaldırırlar”.

Dövlət başçımız xüsusi olaraq gənclərin bu sahəyə daha çox meyil etməsini bildirib: “Gənclər vətənpərvər, peşəkar, fiziki cəhətdən güclü olmalıdırlar. Mən görürəm, Beyləqan idmançılarının medalları kifayət qədər çoxdur. Siz bu medalları yarışlarda qazanmısınız. Beyləqanda çox güclü güləş məktəbi vardır. Bu ənənələr yaşayır, yaşayacaq. Əminəm ki, bundan sonra da Beyləqan ölkəmiz üçün gözəl idmançılar yetişdirəcəkdir. Biz isə, çalışacağıq ki, bundan sonra da idmanın inkişafı ilə bağlı lazımi addımları ataq. Çünki idman Azərbaycanda dövlət siyasətidir. Bunu, demək olar ki, bütün beynəlxalq idman qurumları qeyd edir, yüksək qiymətləndirir və məhz buna görə, Azərbaycanda çox böyük beynəlxalq yarışlar keçirilir”.

### Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasında

Ali Baş Komandan, Prezident İlham Əliyev, həmçinin, yenidən qurulan 110/35/10 kV-luq “Beyləqan-1” yarımstansiyasının, rayonu ərazisində yeni inşa edilən “N” saylı hərbi hissəsinin açılışında iştirak etməklə yanaşı, yaradılan şəraitlə tanış olub. Məhz bu gün Azərbaycanın uğurlu iqtisadi inkişafının müsbət nəticəsidir ki, Silahlı Qüvvələrimizin də müasir standartlara cavab verən peşəkar orduya çevrilməkdədir. Təbii ki, güclü ordunun yaradılması həm də güclü hərbi-sənaye kompleksinin mövcudluğu ilə şərtlənir. Son illərdə hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi sahəsində sistemli tədbirlər görülüb. Hərbi qulluqçuların rütbə və vəzifə maaşları artırılıb, onlar üçün paytaxtda və bölgələrdə xidməti yaşayış binaları tikilib. İndi Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasındadır. Bunu beynəlxalq hərbi tədqiqat mərkəzlərinin hesabatları da təsdiqləyir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev burada silahlanmaya yeni qəbul edilən hərbi texnika ilə tanış olub. Dövlət başçısı daha sonra yeməkxanada yaradılan şəraitlə maraqlandı və hərbi hissənin şəxsi heyəti ilə birlikdə nahar etdi.

Beləliklə, Prezident İlham Əliyevin istər xarici, istərsə də daxili məsələlərdə nümayiş etdirdiyi siyasi iradə Azərbaycanın daha da qüdrətlənməsinin, ölkənin dinamik inkişafının əsas xəttini təşkil etməklə yanaşı, əhalinin sosial rifahının daha da yaxşılaşdırılması istiqamətində mütərəqqi siyasətini reallaşdırmış olur. Bu isə, son nəticədə, ölkəmizin daha da inkişaf etməsinə, sosial rifahın yüksək səviyyəyə çatdırılmasına və iqtisadiyyatımızın güclənməsinə geniş imkanlar yaradır.

**RƏFİQƏ KAMALQIZI**

## Rəsmi xronika

Prezident İlham Əliyev “Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Mahmud Məmməd-Quliyevin 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Sumqayıt şəhərinin 70 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiçə təbrik məktubu ünvanlayıb.

***

Prezident İlham Əliyev Eyvaz Hüseynovun 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

# Ali məktəb tələbələri üçün Prezident təqaüdünün məbləği artırıldı



Prezident İlham Əliyev "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb. AZƏRTAC xəbər verir ki, Fərmana əsasən, ölkəmizdə təhsil sahəsində ən yüksək nəticələr əldə etmiş tələbələrə dövlət qayğısını gücləndirmək məqsədilə Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün məbləği 210 (iki yüz on) manat müəyyən edilib. Bu Fərman martın 1-dən qüvvəyə minir. Xatırladaq ki, əvvəl Prezident təqaüdü 185 (yüz səksən beş) manat olub.

# "Naxçıvanda mətbuat tarixi" kitabı Almaniyada işıq üzü görüb




***Naxçıvan Dövlət Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru Seyid Surənin muxtar respublikada dərc olunan "Şərq qapısı" qəzetinin materiallarından ibarət "Naxçıvanda mətbuat tarixi" adlı kitabı Almaniyada ingilis dilində işıq üzü görüb.***

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, kitabda XX əsrin əvvəllərində Naxçıvanda mətbuatın yaranma tarixi, keçdiyi şərəfli və keşməkeşli yol, bugünkü inkişaf səviyyəsi geniş işıqlandırılır. Eyni zamanda, müstəqillik illərində Naxçıvanda mətbuata göstərilən dövlət qayğısı, güclü maddi-texniki bazanın yaradılması, qanunvericilik bazasının formalaşdırılması elmi təhlil süzgəcindən keçirilir və dəyərləndirilir.

Lambert Akademik Nəşriyyat Evi (LAP - Lambert Academic Publishing House) kitabların, elmi tədqiqatların alman, ingilis, türk, ərəb və rus dillərində onlayn və çap şəklində yayımını həyata keçirir. Bu nəşriyyat evinin köməyi ilə hər bir kitabın beynəlxalq kodu (ISBN) mövcuddur. Burada nəşr olunan hər bir kitab bir çox beynəlxalq kataloqlara daxil edilməklə Amerika və Avropanın həm də onlayn kitab satışı saytlarında yayımlanır.

Kitablar www.morebooks.de, www.amazon.de, www.amazon.co.uk, www.amazon.com və digər veb-saytlar vasitəsilə bütün dünyada satılmaqdadır. Lambert nəşriyyat evi, eyni zamanda, www.omniscriptium.com saytı vasitəsilə dünyanın 40-dan çox ölkəsində çap məhsullarının yayımını həyata keçirir. Naxçıvanla bağlı elmi araşdırmaların və kitabların beynəlxalq aləmə çıxışını təmin etmək və yaymaq qədim diyarımızın həqiqətlərini dünya miqyasında tanıtmaq baxımından böyük əhəmiyyət daşıyır.

Qeyd edək ki, Seyid Surə Naxçıvan mətbuat tarixinin ilk dəfə elmi şəkildə araşdırılıb üzə çıxarılması və tədqiqi istiqamətində ardıcıl işlər aparıb. Belə ki, o, bu mövzuya dair 20-dən çox elmi məqalənin, 1 monoqrafiyanın, Azərbaycan və ingilis dillərində nəşr olunmuş iki dərs vəsaitinin müəllifidir. "Naxçıvanda mətbuat tarixi" adlı seçmə fənn magistratura təhsil pilləsində Naxçıvan Dövlət Universitetinin tədris planına daxil edilib və Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən Seyid Surənin müəllifliyi ilə qrifli dərs vəsaitinin nəşrinə icazə verilib.

# Oksana Puşkina: "Heç bir ölkədə Azərbaycandakı kimi füsunkar, güclü və müstəqil qadınlar görməmişəm"

***Mən həmişə Rusiya və Azərbaycan arasında münasibətlərin inkişafı prosesində böyük həvəslə iştirak etmişəm. Sizin ölkəni həm ağır, həm də xoşbəxt günlərində daim dəstəkləmişəm və bu gün də dəstəkləməkdə davam edirəm. Bu sözləri AZƏRTAC-a müsahibəsində Rusiya Federasiyası Dövlət Dumasının ailə, qadın və uşaq məsələləri Komitəsinin sədri Oksana Puşkina söyləyib.***

O.Puşkina xatırladıb ki, ilk dəfə Azərbaycana ümummilli lider Heydər Əliyevdən "Jenski vzqlyad" proqramı üçün müsahibə götürmək məqsədilə səfər edib: "Bəlkə də Heydər Əliyevin



ölkəsi ilə tanış olmağa başlayandan sonra mənim qəlbimdə bir çox məqamlara dair tamamilə səmimi münasibət yarandı. Sənə inanırlarsa, öz həyat yolundan, əlbəttə, həm Sovet İttifaqı, həm də Azərbaycanın tarixi ilə bağlı şəxsi keçmişindən bəhs edirlərsə, bütün bunlar çox dəyərlidir. Lakin evə daxil olduqdan sonra artıq sənin üzərinə müəyyən öhdəliklər də düşür".

Rusiya və Azərbaycanın qadın icmalarının sıx əməkdaşlıq etdiklərini qeyd edən O.Puşkina deyib: "Heç bir ölkədə Azərbaycandakı kimi füsunkar, güclü və müstəqil qadınlar görməmişəm. Biz mədəni və təhsil əlaqələrini inkişaf etdiririk. Lakin bütün qadınları öz uşaqlarının gələcəyi maraqlandırır və mənə elə gəlir ki, bu gün qadınların mövqeyi hər zaman olduğundan daha aktualdır".

Deputat Azərbaycanla həyata keçirilən birgə layihələrdən də bəhs edib: "Mən məhdud imkanları olan uşaqlarla məşğul oluram. Bizim fərqli inkişaf xüsusiyyətləri olan uşaqların reabilitasiyası, habelə palliativ yardım üzrə maraqlı proqramlarımız var. Onları Azərbaycanla bölüşmək istəyirik".

# Elmar Məmmədyarov Almaniyaya gedib



Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov fevralın 15-17-də keçiriləcək Münxen Təhlükəsizlik Konfransında iştirak etmək məqsədilə Almaniyaya işgüzar səfərə yola düşüb. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində nazirin 55-ci Münxen Təhlükəsizlik Konfransında iştirakı ilə yanaşı, bir sıra ikitərəfli görüşlərin keçirilməsi nəzərdə tutulub.

# Milli Məclisdə "Peşə birlikləri haqqında" qanun layihəsinin ictimai müzakirəsi keçirilib



Fevralın 14-də Milli Məclisin insan hüquqları və hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda "Peşə birlikləri haqqında" qanun layihəsinin ictimai müzakirəsi keçirilib. Milli Məclis sədrinin müavini, insan hüquqları komitəsinin sədri Bahar Muradova deyib ki, parlament müxtəlif mövzular ətrafında ictimai müzakirələr, diskussiyalar, konfranslar təşkil edir, gündəmin mövzularına dair geniş müzakirələr açır və sosial təbəqələrdən gələn sifarişləri, istək və arzuları, mövcud problemlərin həlli yolları ilə bağlı təklifləri daim dinləyir, müzakirə edir və qanunların qəbulu prosesində bundan faydalanır. Bu səviyyədə çoxsaylı müzakirələr keçirilib, Milli Məclisin komitələrində, o cümlədən plenar iclasda müzakirə olunaraq bir çox qanunlar qəbul olunub ki, bunlar da bu gün həyatımızın müxtəlif sahələrini tənzimləyən vacib normativ hüquqi aktlara çevrilib.

Bahar Muradova qeyd edib ki, "Peşə birlikləri haqqında" qanun layihəsinin ictimai müzakirəsi hər şeydən əvvəl bu məsələ ilə bağlı vəziyyəti araşdırmaq, mövcud problemləri aradan qaldırmaq, inkişafa nail olmaq məqsədilə müxtəlif təcrübələri öyrənmək və qanunvericiliyimizə gətirmək üçün ilkin addımdır. Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev deyib ki, bu gün peşə birlikləri ilə bağlı fəaliyyət var. Sadəcə, mövcud ictimai münasibətlər qanunvericilik çərçivəsində tənzimlənmir. Bunu qanun formasına salıb təqdim etməyə ehtiyac var idi və biz bunu etdik. Bu qanun layihəsi həm dövlətin, həm də peşə birliklərinin maraqlarına uyğundur.

A.Quliyev bildirib ki, qanun layihəsi 4 fəsil, 17 maddədən ibarətdir. Bu qanun layihəsi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin birinci hissəsinin 1-ci və 10-cu bəndlərinə uyğun olaraq, peşə birliklərinin statusunu, yaradılması və fəaliyyəti qaydasını müəyyən edir, müvafiq sahələr üzrə peşələrin inkişafını, peşə sahiblərinin qanuni maraqlarının qorunmasını təmin edir, peşə birliyi, onun üzvləri və üzvlərin mallarının (işlərinin, xidmətlərinin) istehlakçıları arasında yaranan münasibətləri tənzimləyir.

İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov deyib ki, Prezident İlham Əliyevin iqtisadi islahatlar kursu hüquq sisteminin təkmilləşdirilməsi ilə ayrılmaz surətdə bağlıdır. Bu gün Azərbaycanda kifayət qədər mükəmməl hüquq sistemi yaradılıb. Amma, eyni zamanda, ictimai münasibətlər də yerində dayanmır, getdikcə daha mürəkkəbləşir, onun yeni xüsusiyyətləri, yeni sahələr ortaya çıxır. "Peşə birlikləri haqqında" qanun layihəsinin hazırlanması zərurətdən yaranan bir addımdır. Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev qeyd edib ki, ölkəmizdə genişmiqyaslı islahatlar aparılır. Bu islahatların əsas hissəsi hüquqi islahatlardır. Qeyd olunub ki, "Peşə birlikləri haqqında" qanun layihəsi dünya təcrübəsinə uyğundur. Komitə üzvləri layihəni konseptual baxımdan dəstəkləyərək bəzi təkliflər irəli sürüblər.

# Bölgələrin inkişafı dövlətin diqqət mərkəzindədir

## *Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Gəncə şəhərinə səfər edib*

***Fevralın 14-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Gəncə şəhərinə gəliblər.***

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ulu öndər Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular. Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Birinci vitse-prezidentə son illərdə şəhərdə aparılan abadlıq-quruculuq işləri barədə məlumat verdi. Mehriban Əliyeva Regional İnkişaf İctimai Birliyinin nümayəndələri ilə görüşdü.



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva fevralın 14-də Gəncədə "İmamzadə" dini kompleksini ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, Qafqaz Müsəlmanları İdarəsinin qərb bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Hacı Tahir Abbasov VIII əsrə aid tarixi memarlıq abidəsi olan və xalq arasında "Göy günbəz", "Göy məscid", yaxud "Göy İmam" kimi tanınan "İmamzadə" dini-mədəniyyət kompleksinin yenidənqurma işlərindən sonra bütün müsəlman dünyasından ziyarətçiləri qəbul etdiyini bildirdi. Qeyd edildi ki, bu kompleksin ən qiymətli abidəsi türbədir. Burada beşinci imam Məhəmməd Baqirin oğlu İbrahim dəfn olunub. Azərbaycan memarlığının dəyərli nümunələrindən olan "İmamzadə" piri Şərqin qədim karvan-ticarət yolunun üzərində yerləşib. Mehriban Əliyevaya və Leyla Əliyevaya "Qurani Kərim" hədiyyə



edildi.

"İmamzadə" əsrlərdən bəri Azərbaycanın müxtəlif bölgələrindən, eləcə də başqa ölkələrdən gələn müsəlmanların ziyarətgahı olub. Bu dini abidə Gəncənin qədimliyini sübut etməklə yanaşı, şəhərin İslam aləmindəki yerini və nüfuzunu da göstərir. Kompleks Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində yerləşir. Ölkənin dini-tarixi abidələrinin tamamilə yenidən qurulmasına və gələcək nəsillərə çatdırılmasına həssaslıqla yanaşan Prezident İlham Əliyev bu kompleksin də təmiri və bərpasına xüsusi diqqət göstərib. İnsanların inam və inanc yeri kimi üz tutduqları bu məbəd məhz dövlətimizin başçısının sərəncam və göstərişləri sayəsində belə gözəl görkəm alıb. Birinci vitse-prezident Mehriban Əliyeva burada ziyarətə gələnlərlə görüşdü. Qeyd edək ki, fevralın 14-də "İmamzadə" kompleksində Azərbaycanın Birinci vitse-prezidentinin adından ehsan süfrəsi verilib.



Fevralın 14-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Gəncə şəhərində Nizami Aydın adına 18 nömrəli tam orta məktəbdə oldular.

AZƏRTAC xəbər verir ki, məktəbin direktoru Mətanət Rzayeva burada sonuncu dəfə 1988-ci ildə cari təmir işlərinin aparıldığını və hazırda bu təhsil müəssisəsinin əsaslı şəkildə yenidənqurmaya ehtiyac olduğunu bildirdi. 1965-ci ildən istismarda olan məktəbdə tədris Azərbaycan və rus bölmələrində aparılır. 39 sinifdən 28-i Azərbaycan, 11-i isə rus bölməsinə aiddir. 640 yerlik məktəbdə hazırda 795 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 56 nəfərdən ibarət pedaqoji heyət məşğul olur. 2017-2018-ci tədris ilində məktəbi 61 məzun bitirib və onlardan 20-si Azərbaycanın ali məktəblərinə qəbul olunub. Qəbul imtahanlarında məktəb üzrə 4 nəfər 600-dən, 5 nəfər isə 500-dən yuxarı bal toplayıb.

Məktəbin sinif otaqları ilə yaxından tanış olan Mehriban Əliyevaya məlumat verildi ki, əsaslı təmir işlərindən sonra bu təhsil ocağında tədrisin keyfiyyəti daha da yüksələcək və məktəb birnövbəli iş rejiminə keçəcək. Birinci vitse-prezident məktəbdəki mövcud vəziyyətin araşdırılması və təcili surətdə yenidən qurulması üçün tapşırıqlarını verdi.

Fevralın 14-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Gəncədəki uşaq evinə baş çəkiblər. AZƏRTAC xəbər verir ki, uşaq evinin direktoru Nazilə İsmayılova hazırda Gəncə şəhər uşaq evi üçün daha bir korpusun inşasının aparıldığını bildirdi. Qeyd edildi ki, tikinti işlərinə ötən ilin dekabrında başlanılıb. Burada iki yataq otağı, qış idman zalı, əmək və istirahət otaqları, yeməkxana və camaşırxana nəzərdə tutulub.

Mehriban Əliyeva uşaq evindəki şəraitlə tanış oldu, müəssisənin azyaşlı sakinləri ilə görüşdü. Balacalarla səmimi söhbət edən Birinci vitse-prezident onların uşaq evindəki yaşayışı, təhsili ilə maraqlandı. Uşaqlar da Mehriban Əliyevanın ətrafına toplaşıb istək və arzuları ilə bölüşdülər, oxuduqları kitablardan, maraq göstərdikləri oyunlardan, sevdikləri əyləncələrdən danışdılar.

Uşaqları böyük maraqla dinləyən Heydər Əliyev Fondunun prezidenti onlara yaxşı oxumağı tövsiyə etdi, bilikli və savadlı olmaq üçün təhsillərinə diqqətlə yanaşmalarının əhəmiyyətini vurğuladı.

Bu müəssisə 1997-ci ildən fəaliyyət göstərir və 2012-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir olunub, işıq, qaz və su xətləri yenilənib, mərkəzləşdirilmiş istilik sistemi yaradılıb. İkimərtəbəli binada 4 yataq otağı, psixoloq, həkim, kompüter, əmək və istirahət otaqları, mətbəx və yeməkxana, böyük idman zalı var. Səksən nəfərlik uşaq evində hazırda 40-ı oğlan, 28-i qız olmaqla, ümumilikdə 68 uşaq tərbiyə alır. Onlardan 14 nəfəri azyaşlı, digərləri isə məktəblidir. Uşaqların təlim-tərbiyəsi ilə 50 nəfərlik işçi heyəti məşğul olur. Binanın həyətində uşaqların asudə vaxtlarının səmərəli təşkili üçün attraksionlar quraşdırılıb, ərazidə yaşıllıq sahələri salınıb.



Fevralın 14-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Gəncədə Mir Cəlal Paşayevin ev-muzeyində olublar. Ev-muzeyinin direktoru İradə İbayeva muzey və onun nəzdində elmi-ədəbi tədqiqat şöbəsinin Azərbaycan nəsrinin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi, yazıçı-alim Mir Cəlal Paşayevin 100 illik yubileyi ərəfəsində ədibin xatirəsinə ehtiram əlaməti olaraq yaradıldığını bildirdi. 2007-ci ildə istifadəyə verilən ev-muzeyinə ədibin pasportu, orden və medalları hədiyyə edilib. Hazırda bu əşyalar muzeyin ən dəyərli eksponatlarıdır.

Mir Cəlal Paşayevin ev muzeyinin Gəncə şəhərində fəaliyyət göstərməsi təsadüfi deyil. Çünki o, Cənubi Azərbaycanda anadan olsa da, taleyi onu qədim Gəncə şəhərinə gətirib çıxarıb. Ədib həmişə Gəncəni sevib və doğma şəhəri bilib. Mir Cəlal Paşayevin uşaqlıq, gənclik və tələbəlik illəri, pedaqoji və ədəbi fəaliyyəti, ailə həyatı xronoloji ardıcıllıqla muzeyin ekspozisiyasında əksini tapıb. Hazırda eksponatların sayı 300-dən artıqdır. Muzey kompleksində 2009-cu ilin aprel ayında elmi-ədəbi tədqiqat şöbəsi fəaliyyətə başlayıb. Şöbənin yaradılması ədəbiyyatımızın tədqiqinə, araşdırılmasına xidmət edir. Mir Cəlal Paşayev muzey kompleksində mütəmadi olaraq şair və yazıçıların kitab təqdimatları, şəhər ziyalıları ilə görüşlər, konsertlər, şagird və tələbələr üçün ədəbiyyat dərsləri, ekskursiyalar və digər ədəbi-bədii tədbirlər keçirilir.



Ardı Səh. 5

# Bölgələrin inkişafı dövlətin diqqət mərkəzindədir

## *Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Gəncə şəhərinə səfər edib*



Əvvəli Səh. 4

Muzey fəaliyyətə başladığı gündən şəhər əhalisinin, tələbə və şagirdlərin ziyarətgahına çevrilib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva fevralın 14-də Gəncədəki 32 nömrəli körpələr evi-uşaq bağçasına baş çəkiblər. AZƏRTAC xəbər verir ki, direktor Sahilə Hüseynova 280 yerlik bağçada hazırda 4 qrup üzrə 75 uşağın təlim-tərbiyə aldığını dedi. Bildirildi ki, ümumilikdə 20 nəfərlik heyət uşaqların sağlam, bilikli, bacarıqlı və vətənpərvər ruhda böyümələri üçün çalışır. Aparılan təlim-tədris prosesi uşaqların ətraf aləmlə tanışlığını gerçəkləşdirmək, ibtidai təhsilə dəstək üçün ilkin bilgilər vermək, ünsiyyət qaydalarını öyrətmək, fiziki və zehni sağlamlığını qorumaq məqsədi daşıyır.

Mehriban Əliyevanın diqqətinə çatdırıldı ki, 32 saylı körpələr evi-uşaq bağçasının yerləşdiyi bina 1985-ci ildə inşa edilib. Hazırda bu məktəbəqədər təhsil müəssisəsində əsaslı təmirə ehtiyac yaranıb.

Qeyd edək ki, son illərdə Mehriban Əliyevanın rəhbərliyi ilə ölkəmizdə yeni bağçalar istifadəyə verilir, mövcud olanların isə əsaslı yenidən qurulması həyata keçirilir. Bu məqsədlə Heydər Əliyev Fondunun məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramı uğurla icra olunur. Birinci vitse-prezident Mehriban Əliyeva Gəncədəki 32 saylı körpələr evi-uşaq bağçasının da yenidən qurulmasının qısa zamanda və keyfiyyətlə həyata keçirilməsinin vacibliyini vurğuladı.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva fevralın 14-də Gəncənin görməli yerlərindən biri olan "Xan bağı" mədəniyyət və istirahət parkında sakinlərlə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya "Xan bağı"nın simasının tamamilə dəyişdiyi barədə məlumat verildi.

Qafqazın ən qədim parklarından biri, yaşı 200-dən çox olan "Xan bağı"nda aparılan yenidənqurma işləri ilk dəfə məhz Prezident İlham Əliyevin tapşırığı ilə həyata keçirilib. Parkda müxtəlif ölkələrdən gətirilmiş ağaclar, dekorativ kollar əkilib. Burada fəvvarələr, müasir işıqlandırma sistemi quraşdırılıb, Venesiya guşəsi yenidən qurulub, 350 yerlik yaşıl teatr inşa olunub. Xalq şairi Nigar Rəfibəylinin heykəli və Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun qəbirüstü abidəsi də yeni görkəm alıb.



"Xan bağı" bitki florasının zənginliyinə görə bütün ölkədə məşhurdur. Ağacların növ tərkibi yerli cinslər hesabına artırılıb. Daxilində xiyabanlar salınıb, yay teatr binası, müxtəlif istirahət guşələri yaradılıb. Parkın yaraşıqlı yerlərindən biri də onun mərkəzində yerləşən əzəmətli çinar xiyabanıdır. Cərgələnən çinarlar arasında su hovuzları və fəvvarələr quraşdırılıb.

Sonra Birinci vitse-prezident Mehriban Əliyeva Gəncə şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

Mehriban Əliyeva: Xoş gördük, sizi salamlayıram.

Sakinlər: Çox sağ olun, bizə göstərdiyiniz qayğıya görə Prezidentimizə, Sizə böyük minnətdarlığımızı bildiririk. Xoş gəlmisiniz. Şəhərimizin rəhbərliyinə də minnətdarlığımızı bildiririk.

Mehriban Əliyeva: Yenidən Gəncədə olmağımdan çox şadam. Son dəfə beş il bundan əvvəl Gəncədə olmuşam. Gəncə qədim mədəniyyət mərkəzidir. Bütün dövrlərdə Gəncə incəsənət, mədəniyyət, memarlıq sənəti ilə tanınıb. Gəncə dahi Nizaminin yurdudur. Azərbaycan xalqının Gəncədə yaşayıb-yaradan görkəmli nümayəndələri bizim milli sərvətimizdir. Ona görə Gəncədə olmaq mənim üçün hər zaman çox xoşdur və çox sevinirəm ki, yenidən sizinlə görüşürəm.

Sakinlər: Biz Sizi çox istəyirik. Allah Prezidentimizin canını sağ eləsin. Hamımız Prezidentimizə təşəkkürümüzü, minnətdarlığımızı bildiririk.

Kişi sakin: Prezidentimiz çox sağ olsun. Vaxtında sərmayə ayırdılar, işlər öz yolundadır, kirayə haqqı vaxtında verilir.

Mehriban Əliyeva: İlham Əliyev prezidentlik dövründə 15 dəfə Gəncədə olub, daim Gəncəyə diqqət göstərir. Gəncə bizim qədim şəhərdir, gözəl şəhərdir, böyük tarixə malik şəhərdir. Burada bütün tarixi, dini, memarlıq abidələri qorunur və qorunmalıdır. Amma, eyni zamanda, Gəncədə müasirlik var, müasir binalar, yeni yollar, infrastruktur, yeni parklar yaradılır. Xan bağı da qədim abidədir. Əlbəttə, tarixiliyi, qədim simanı qoruyub saxlamaq, eyni zamanda, müasirləşmək Gəncəni nadir bir şəhərə çevirib. Burada təkrarolunmaz ab-hava var, əlbəttə, əsas gəncəlilərdir. Mən hər zaman sizin qonaqpərvərliyinizi, səmimiyyətinizi



hiss edirəm, çox sağ olun, burada olmağıma çox şadam. Mən bir neçə məktəbə baxdım, uşaq bağçalarında, uşaq evində oldum. Əsas məqsədim ondan ibarətdir ki, problemləri, həllini tapmayan məsələləri bilim. Onların hamısı ardıcıl olaraq həllini tapmalıdır.

Sakinlər: Çox sağ olun, Allah razı olsun. Təşəkkür edirik, bizə belə qayğı göstərirsiniz.

Kişi sakin: Mən cənab Prezidentə təşəkkür etmək istəyirəm. Uzun müddət idi ki, evlərimizin damları yararsız hala düşmüşdü. İndi çox gözəl damlar düzəldilir. Allah Prezidentimizin canını sağ eləsin.

Mehriban Əliyeva: Vəsait ayrılıb.

Kişi sakin: Bəli, vəsait ayrılıb. Gözəl asfalt yollarımız, müasir məktəblərimiz, poliklinikalarımız var. Bütün bunlarla fəxr edirik. Məktəblərimiz, universitetimiz çox gözəldir. Bilirsiniz ki, Gəncə Dövlət Universiteti qərb zonasında ən böyük universitetdir. Orada Ulu Öndərimizin gözəl guşəsi var. Sizin bu gün Gəncəyə gəlməyiniz, xüsusilə Leyla xanımla gəlməyiniz bizi çox sevindirir. Düz deyirlər, o, bizim qızımızdır.

Dünya Azərbaycanlılarının arzusudur ki, bayrağımız Şuşada, Xankəndidə, Cəbrayılda, Zəngilanda, Kəlbəcərdə, Laçında dalğalansın.

Mehriban Əliyeva: Amin! Bu, hər bir azərbaycanlının ən böyük arzusudur, inşallah.

Sakinlər: Biz Prezidentimizə inanırıq, biz onu çox istəyirik. Gəncəlilər həmişə onun arxasındadır.

Kişi sakin: Mən Aqil Paşayevin 40 illik dostuyam. Sizə bir jurnal gətirmişdim, Mir Cəlal Paşayevin ev muzeyi haqqında idi.

Mehriban Əliyeva: Elə indi mən Mir Cəlal Paşayevin ev muzeyində oldum.

Kişi sakin: İndi Gəncədə çox gözəl işlər gedir. Əvvəllər küçələrimiz çala-çuxur idi. İndi qəşəng asfalt salınır. Dam örtükləri təzələnir, həqiqətən, böyük savab iş görmüsünüz.

Mehriban Əliyeva: Prezident də sizə salamlarını göndərdi. Mənə dedi ki, gəncəlilərdən soruşun, onları narahat edən hansı məsələlər var, ardıcıl olaraq hamısı həllini tapacaq.

Məktəblərlə bağlı məsələlərlə sıx məşğul oluram. Siz bilirsiniz ki, son 15 ildə ölkə üzrə 3 mindən çox məktəb tikilib və ya bərpa olunub. Ölkəmizdə bir dənə də təmirsiz məktəb qalmamalıdır. Ona görə bu sahədə ardıcıl olaraq bütün tədbirlər görülür, həm dövlət proqramı çərçivəsində, həm də Heydər Əliyev Fondunun dəstəyi ilə. Mənə məlumat verdilər



ki, uşaq bağçaları ilə bağlı problem var, beşi qəzalı vəziyyətdədir. Dərhal məşğul olacağıq ki, onların da maddi-texniki bazasını yenidən quraq. Bilirəm ki, Gəncə şəhərində infrastrukturla bağlı çox işlər görülür, qazlaşdırma, enerji ilə təminat 100 faizdir.

Kişi sakin: Ölkəmizdə əmin-amanlıq var. Cənab Prezident müharibə olmasını istəmir, torpaqlarımızı sülh yolu ilə azad etməyə çalışır. Sizin daha bir xeyirxah işiniz - xəstə uşaqların, xəstə anaların müalicəsinə kömək etməyiniz bizi çox ruhlandırır. İnanın, elə bil ki, Siz hər gün o uşaqlarla gedib Məkkəni ziyarət edib gəlirsiniz. Bu, çox xeyirxah işdir. Ona görə də bu gözəl qızlar Sizə minnətdardırlar.

Mehriban Əliyeva: İmkanım olanda hər zaman kömək etməyə çalışıram.

Kişi sakin: Bəli, çox sağ olun, Allah imkanlarınızı daha da çox eləsin.

Mehriban Əliyeva: Mən bilirəm ki, keçən ilin noyabr ayında bu binada partlayış olub. Hadisə zamanı əfsuslar olsun ki, 3 nəfər həlak olub, Allah rəhmət eləsin, Allah onların yaxınlarına səbir versin. Amma onu da deyim ki, bu məsələ Prezidentin tam nəzarəti altındadır, Sərəncam da imzalanıb, vəsait də ayrılıb. Qısa bir zamanda yeni, müasir və çoxmənzilli yaşayış binası tikiləcək və 36 ailənin hər biri yeni mənzillə təmin olunacaq.

Qadın sakin: Çox sağ olun, Sizin qayğınızı hər zaman hiss edirik.

Mehriban Əliyeva: Mən də sizin məhəbbətinizi, dəstəyinizi hiss edirəm, çox sağ olun.

Kişi sakin: Tez-tez gəlin, Mehriban xanım, Sizi gözləyəcəyik.

Gənc kişi sakin: Gəncənin gəncləri adından təşəkkür edirəm. Mən Prezidentin gənclərin xaricdə təhsili ilə bağlı Fərmanına əsasən Almaniyanın Fray Universitetində təhsil almışam, fəlsəfə doktoruyam. Çox təqdirəlayiq haldır ki, ölkəmizdə gənclərə çox böyük dəstək var, önəm verilir. Hazırda Gəncədəki Aqrar Universitetin elm şöbəsində çalışıram. Bizim rektorumuz da gənclərə çox önəm verir. Mən özüm də şadam ki, xaricdə doktorantura üzrə təhsil alıb gəlmişəm və çox böyük diqqət və qayğı ilə əhatə olunmuşam. Buna görə bir gənc kimi Prezidentimizə, Sizə çox təşəkkürümü bildirirəm, çox minnətdaram. Çox xoşdur ki, Sizinlə görüşüb ürək sözlərimi deyə bildim.

Mehriban Əliyeva: Çox gözəl, bunu eşitməyə çox şadam, çox sağ olun.

Qadın sakin: Gəncəlilərin salamlarını cənab Prezidentə çatdırmağı xahiş edirik. Biz onu çox sevirik.

Mehriban Əliyeva: Sağ olun, mən sizin salamlarınızı Prezidentə çatdıracağam. Çox sağ olun. O da sizi çox sevir.

Ardı Səh. 6

səs
www.sesqazeti.az
facebook Ses Media Holding
15 fevral 2019-cu il

# Bölgələrin inkişafı dövlətin diqqət mərkəzindədir

*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Gəncə şəhərinə səfər edib*










Əvvəli Səh. 5





Yaşlı kişi sakin: Mehriban xanım, elimizin, obamızın, millətimizin gözəl xanımı. Möhtərəm Prezidentimizlə çiyin-çiyinə bu mürəkkəb dünyada Azərbaycanı belə gözəl vəziyyətdə saxlayıb, hörmətli Prezidentimizin özünün dediyi kimi, bir sabitlik adasına çevirməyin özü böyük şərəfdir. Sizinlə burada görüşməyimiz bizim üçün böyük şərəfdir. Ulu Öndərin yadigarı, möhtərəm Prezidentimiz Gəncəyə həmişə diqqət göstərir. Mehriban xanım, Siz də Gəncəyə həmişə qayğı göstərirsiniz. Bunları bir-iki kəlmə sözlə sadalayıb qurtarmaq mümkün deyil. Siz özünüz bizdən də yaxşı bilirsiniz ki, Gəncə üçün hansı işlər görülüb, Gəncədə elə bir gözəl şərait yaranıb ki, burada işləmək də, yaşamaq da şərəfdir. Biz qürur hissi keçiririk ki, Sizin kimi rəhbərlərimiz var. Biz hər şeydən arxayınıq. Bu gözəl balalar da Sizinlə görüşə gəliblər. Mehriban xanım, bu gözəllik Sizin sayənizdədir.

Qadın sakin: Evimiz hazır olsun, Sizi qonaq dəvət edərik, İnşallah.

Mehriban Əliyeva: Sağ olun. Mən şadam bunların hamısını eşitməkdən. Mən də ürək sözlərimi deməliyəm. Mən çox xoşbəxtəm ki, yenidən Gəncədəyəm. Gəncə xüsusi şəhərdir. Gəncənin mehriban insanları, gözəl memarlığı, qədim tarixi, təkrarolunmaz ab-havası var. Əlbəttə, mən məktəblərə də getdim, uşaq evlərində, muzeydə, "İmamzadə" Kompleksində oldum. Amma buraya gələndə mənim əsas məqsədim o idi ki, gənclərlə görüşüm. Doğrudan da mən sizin bu dəstəyinizi, sevginizi hər zaman qəlbimdə hiss edirəm. İnanın ki, eyni hissləri mən də yaşayıram. Dediyim kimi, cənab Prezident 15 dəfə Gəncədə olub və İnşallah, yenə də olacaq. Ona görə burada həyata keçirilən bu abadlaşma, bu inkişaf hər zaman bizim diqqətimizdədir, hər zaman bizi sevindirir. Amma, eyni zamanda, yenə də deyirəm ki, hələ də öz həllini tapmayan problemlər də var. Biz onları bilməliyik, biz onların həlli üçün ardıcıl tədbirlər həyata keçirməliyik. Çünki əsas məqsəd odur ki, insanlar rahat, xoşbəxt yaşasınlar və ölkəmizdə bunun üçün hər şey var. Mən sizə bir daha dərin minnətdarlığımı bildirirəm. Çox şadam hər birinizi görməyə. Çox sağ olun. Çalışacağam Gəncəyə tez-tez gəlim.



Yaşlı kişi sakin: Biz də Sizə minnətdarıq, Mehriban xanım. Mən Ulu Öndərlə 3 dəfə görüşmüşəm. Onun keçirdiyi plenumlarda, büro iclaslarında iştirak etmişəm. Gəncəlilər Heydər Əliyev ideyasına həmişə sadiqdirlər və həmişə də sadiq olacaqlar. Gəncəlilər Prezident İlham Əliyevin arxasındadırlar. Mehriban xanım, gəncəlilər Prezident İlham Əliyevin və Sizin dəstəyinizi hiss edirlər və minnətdardırlar. Gəncədəki bugünkü sabitlik, abadlıq, quruculuq işləri fərəhlidir, ürəkaçandır. Bunu hər bir gəncəli hiss edir. Hər bir gəncəlinin çöhrəsindən də hiss etmək olur ki, bu, doğrudan belədir. Sizə təşəkkür edirik. Bizim salamlarımızı Prezidentimizə çatdırın.

Mehriban Əliyeva: Çox sağ olun. Mütləq çatdıracağam.

Yaşlı kişi sakin: Mehriban xanım, minnətdarıq ki, işinizin bu qədər çox olduğu bir zamanda vaxt tapıb Gəncəyə gəlmisiniz, gəncəlilərlə görüşür və onları dinləyirsiniz. Sizə cansağlığı, uzun ömür arzulayıram.

Mehriban Əliyeva: Çox sağ olun. Söz verirəm ki, Gəncəyə tez-tez gələcəyəm. Əmin olun ki, Gəncə ilə bağlı bütün məsələlər, problemlər mənim diqqət mərkəzimdədir. Siz hər zaman əmin ola bilərsiniz ki, hər bir məsələ, sizi narahat edən hər bir sualla bağlı biz əlaqədə ola bilərik və mən əlimdən gələni etməyə hazıram.

Siz yəqin bilirsiniz ki, biz Heydər Əliyev Fondunun nəzdində gənclərin "Regional İnkişaf" İctimai Birliyini yaratmışıq. Burada çalışan bütün gənclər istedadlıdırlar, vətənpərvərdirlər. Yəqin ki, görmüsünüz, Şamaxıda zəlzələdən sonra onlar orada gecə-gündüz çalışırlar, insanlara kömək edirlər. Yəni, bu kömək həm də mənəvi kömək olmalıdır. Ona görə onlar burada da çalışırlar. Gəncədə yaşayan gənclər də bu birliyə qoşula bilərlər. Ona görə bizim daim əlaqəmiz olacaq.

Mənə göstərdiyiniz belə səmimi, belə isti qonaqpərvərliyə görə bir daha sizə minnətdarlığımı bildirirəm. Prezidentin səmimi salamlarını sizə çatdırıram. Çox sağ olun.

Kişi sakin: Xoş gəlmisiniz Mehriban xanım. Bütün digər sahələrdə olduğu kimi, elmin, təhsilin, mədəniyyətin inkişafına göstərdiyiniz qayğıya görə cənab Prezidentə və Sizə dərin minnətdarlığımızı bildiririk. Azərbaycan Milli Elmlər Akademiyasına daim dövlət qayğısı göstərilir, əməkhaqqımız qaldırıldı. Minimum əməkhaqqı artırıldı. Gəncə şəhəri üçün nə qədər işlər görüldü. Niyazi müəllimin buraya təyin edilməsi bizə ürək rahatlığı verdi. Bütün ziyalılar adından bizim salamlarımızı, minnətdarlığımızı cənab Prezidentə çatdırmağınızı xahiş edirəm. Biz sizi çox sevirik.

Mehriban Əliyeva: Çox sağ olun.

Kişi sakin: Mehriban xanım, bütün gəncəlilər adından Sizi salamlayıram. Mən Gəncə Dövlət Universitetinin professoruyam. Biz buraya gəlmişik ki, Sizi görək. Xahiş edirəm bizim minnətdarlığımızı Prezidentimizə çatdırın.

Mehriban Əliyeva: Çatdıracağam, sağ olun.

# "Xocalı soyqırımının iyirmi yeddinci ildönümünün keçirilməsinə dair tədbirlər planı" təsdiq edilib




***Tarixinin müxtəlif dönəmlərində, ermənilər tərəfindən soyqırımına məruz qalan Azərbaycan xalqı, növbəti belə faciə ilə 1992-ci ilin qarlı qışında Xocalıda üzləşdi. Sovetlər imperiyasının süqutu ilə yaranan mürəkkəb tarixi və ictimai-siyasi şəraitdə dövlət müstəqilliyini yenicə qazanan Azərbaycanın üzləşdiyi ərazi itkisi ilə yanaşı, əsrin ən dəhşətli faciələrindən birini yaşaması ölkənin yeni tarixinə qara hərflərlə yazıldı.***

XX əsrin sonunda baş vermiş Xocalı soyqırımı əsrin Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi dəhşətli faciələri ilə bir sırada dayanır. Erməni separatçılarının Azərbaycan xalqının məhv edilməsinə yönəldilmiş soyqırımı və işğalçılıq siyasətinin davamı olan Xocalı faciəsinə qiymət vermək, yalnız Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra mümkün oldu. Ulu Öndərin təşəbbüsü ilə Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilmiş, fevralın 26-sı "Xocalı soyqırımı günü" elan edilmişdir.

Bu gün artıq Xocalı soyqırımından 27 il ötür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması üçün ardıcıl tədbirlər həyata keçirilib və bu gün də davam edir.

Ermənistanın terrorçu hərbi birləşmələri tərəfindən Xocalı şəhərinin xüsusi amansızlıqla məhv edilməsinin, hər il ölkəmizdə olduğu kimi, dünya dövlətlərində də qeyd olunur. Diaspor təşkilatları tərəfindən dünya dövlətlərində keçirilən tədbirlərdə qətlə yetirilən dinc sakinlərin xatirəsi anılır və dünyaya bu soyqırımı barədə həqiqətlər bəyan edilir. Onlara Azərbaycanın cəlb olunduğu Dağlıq Qarabağ münaqişəsi, müharibənin nəticələri, qaçqın və köçkün problemi, eləcə də, bir gecədə məhv edilən Xocalı şəhəri və onun azərbaycanlı sakinlərinin acı taleyi haqqında dolğun məlumat verirlər.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin Sərəncamı ilə "Xocalı Soyqırımının iyirmi yeddinci ildönümünün keçirilməsinə dair tədbirlər planı" təsdiq edilib. Tədbirlər planında Bakının Xətai rayonunda, Goranboy rayon mərkəzində və Ağcakənd qəsəbəsində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidələrin önünə əklil qoyulması mərasimlərinin keçirilməsi, ictimaiyyət nümayəndələri tərəfindən Şəhidlər Xiyabanının ziyarət edilməsi, Azərbaycanın xarici ölkələrdəki səfirliklərində, konsulluqlarında və diaspor təşkilatlarında soyqırımı ilə bağlı tədbirlərin təşkili, xarici və yerli kütləvi informasiya vasitələri, o cümlədən, teleradio kanallarında qanlı qırğını əks etdirən materialların yayılması və internet şəbəkəsində, mütəmadi olaraq, yenilənməsi nəzərdə tutulub.

Ölkəmizdə fəaliyyət göstərən dini konfessiya və qurumların iştirakı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunan anım tədbirləri təşkil ediləcək, idarə və təşkilatlarda, təhsil və mədəniyyət müəssisələrində xatirə gecələri, foto-rəsm sərgiləri, şahidlərlə görüşlər keçiriləcək, Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəyə həsr edilən sənədli və bədii filmlər nümayiş olunacaq. Bütün bunlarla yanaşı, fevralın 26-da təhsil müəssisələrində ilk dərslər Xocalı soyqırımına həsr olunacaq. Həmin gün saat 17.00-da bütün ölkə ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək. Xocalı soyqırımı günü ilə əlaqədar respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində Azərbaycanın dövlət bayraqları endiriləcək.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri bütün beynəlxalq hüquq, o cümlədən, beynəlxalq humanitar hüquq normalarını pozaraq, oraya zirehli texnika yeritmiş, şəhərin dinc əhalisinə misli görünməmiş qəddarlıqla divan tutmuşlar. Ermənistan silahlı qüvvələrinin mühasirəsində qalmış şəhər sakinlərindən 613-ü, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca öldürülmüş, 487 dinc sakin ağır yaralanmış, 1275 nəfər isə girov götürülmüşdür. Dünya tarixinin ən qanlı faciələrindən biri sayılan Xocalı soyqırımı XX əsrdə erməni şovinizminin mahiyyətini aşkara çıxaran təkzibolunmaz tarixi gerçəklikdir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə, İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının, Avropa Şurası Parlament Assambleyasının və eləcə də, digər beynəlxalq təşkilatların qərarlarına baxmayaraq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bu günədək beynəlxalq hüququn normaları və prinsipləri, ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyi çərçivəsində öz həllini tapmamışdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Davamlı inkişafın sosial-iqtisadi problemləri" mövzusunda 37-ci beynəlxalq elmi konfrans keçirilib




***Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) və Sosial və İqtisadi İnkişaf qurumunun (Economic Social Development - ESD) təşkilatçılığı ilə "Davamlı inkişafın sosial-iqtisadi problemləri" mövzusunda 37-ci beynəlxalq elmi konfrans keçirilib.***

***Park Inn otelində təşkil olunan beynəlxalq konfransın açılış mərasimində təşkilatçılarla yanaşı, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi, Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Statistika Komitəsi, Auditorlar Palatası, Sahibkarlar Təşkilatları Milli Konfederasiyası, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin və digər dövlət qurumlarının rəhbər şəxsləri, millət vəkilləri, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvləri iştirak ediblər.***



Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdir müavini Şahin Bayramov beynəlxalq konfransa Bakının ev sahibliyi etməsini ölkədə həyata keçirilən uğurlu dövlət siyasətinin nəticəsi kimi qiymətləndirib. Nazirlik rəsmisi konfransa ölkənin aparıcı universitetlərindən olan UNEC-in təşkilatçılıq etməsini Azərbaycan ali təhsilinin beynəlxalq ali təhsil və elm məkanında artan nüfuzundan xəbər verdiyini vurğulayıb. Konfransı sosial iqtisadi məsələlərin geniş müzakirə olunduğu bir platforma adlandıran Ş.Bayramov bildirib ki, ölkənin inkişaf strategiyasının həyata keçirilməsi üçün seçilmiş çevik mexanizm sosial iqtisadi inkişafın təmin olunmasına geniş imkanlar yaradıb: "Konfransa dünyanın müxtəlif ölkələrindən çoxsaylı alimlərin qatılması onu dəməyə əsas verir ki, alimlər də davamlı inkişafın sosial-iqtisadi inkişaf kontekstində geniş ictimaiyyətə çatdırılmasında maraqlıdırlar".

Beynəlxalq konfransın yüksək səviyyədə təşkil olunmasına göstərdiyi dəstək üçün UNEC rəhbərliyinə minnətdarlığını bildirən Təşkilat Komitəsinin prezidenti Domagoj Cingula 37-ci konfransın Azərbaycanda keçirilməsini əlamətdar hadisə adlandırıb. Bildirib ki, konfransda dünyanın 16-dan çox ölkəsinin tədqiqatçıları ilə birgə dayanıqlı inkişafın sosial-iqtisadi problemləri ilə bağlı müzakirələr aparılacaq və qlobal çağırışlar təhlil ediləcək. D.Cingula konfransa qəbul olunan məqalələrin "Web of Science" və "EconLit" kimi nüfuzlu beynəlxalq elmi bazalarda dərc olunacağını qeyd edib. Tədbir dünya iqtisadiyyatının aktual çağırışlarının müzakirəsi ətrafında çıxışlarla davam edib. Beynəlxalq konfrans öz işini 2 gün UNEC-də təşkil olunan bölmə iclaslarında davam etdirəcək.

# "İkram Rəhimov tək deyil, onun ətrafında olan adamlar da var"



"Biz dəfələrlə çıxışlarımızda demişik və yazılarımızda da yazmışıq ki, bu adamların məsələsi jurnalistika hadisəsi deyil. Reket jurnalist İkram Rəhimov və onun kimilər bir qayda olaraq jurnalistikadan sui-istifadə ilə məşğul olan dələduzlardır. Yəni o adamların məqsədi jurnalistikaya xidmət etmək deyil". Bunu SİA-ya açıqlamasında İctimai TV və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvü, əməkdar jurnalist Azər Həsrət deyib.

Onun sözlərinə görə, onlar sadəcə olaraq başqa insanları şantaj etmək, qorxutmaq, hədələmək yolu ilə özlərinə var-dövlət əldə etmək üçün bu yola baş vuranlardır: "Təbiidir ki, biz onları özümüzdən biri hesab etmirik. Ona görə də həmin adamlar həbs olunanda və yaxud onlarla bağlı hansısa addım atılanda biz deyirik ki, bu məsələni jurnalistika müstəvisində dəyərləndirmək doğru deyil. Onlar bir dələduz dəstəsidir və dələduzluqla məşğuldur. Təbiidir ki, dövlətin müvafiq strukturları həmin adamlara qarşı çox sərt tədbirlər görməlidir. İndi Dövlət Təhlükəsizlik Xidmətinin də İkram Rəhimovla bağlı atdığı addımlar da o qəbildəndir. Biz düşünürük ki, dövlətimiz jurnalistikadan sui-istifadə edənlərə qarşı mümkün qədər sərt addımlar atmalıdır ki, Azərbaycanda jurnalistin, jurnalistikanın hörməti yüksək səviyyədə qorunub saxlana bilsin. Ona görə ki, jurnalistin, jurnalistikanın hörməti yüksək səviyyədə olmazsa, onun yazdığına, təqdim etdiyinə də ictimaiyyət arasında inam olmaz. Belə bir şəraitdə isə Azərbaycan xüsusən də müharibə şəraitində olan bir ölkə kimi çox ciddi problemlərlə üzləşə bilər. Yəni jurnalistikamıza soxulmuş təsadüfi adamların təmizlənməsi prosesi davam etdirilməlidir. İkram tək deyil, onun ətrafında olan adamlar da var. Düşünürəm ki, DTX bununla bağlı da tədbir görməlidir".

# "İkram Rəhimovun adının jurnalistika ilə qoşa çəkilməsi absurddur"



"Dövlət Təhlükəsizlik Xidmətinin reket jurnalist İkram Rəhimovla bağlı son əməliyyatında elə dəqiq və aşkar fakt üzə çıxıb ki, o faktdan sonra həmin adamın əməllərini sübut etmək üçün əlavə nələrəsə ehtiyac yoxdur. Artıq həmin faktlar bu cür adamların jurnalistika üçün nəinki ləkə sayılır, hətta ləkədən də daha böyük cinayət, oğurluq, yalan faktı olduğunu bir daha ortaya qoyur". Bunu SİA-ya açıqlamasında "Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev deyib.

Baş redaktorun sözlərinə görə, belələrinin jurnalistikadan ümumiyyətlə uzaqlaşdırılması indi zamanın tələbinə çevrilib: "Əlbəttə, bu cür əməllərlə məşğul olan jurnalist adı, vəsiqəsi, sənəti, qələmi adı altında əsl bazarlıq edən adamların ümumiyyətlə, jurnalistika ilə paralel sözünün, söhbətinin hallanması belə yolverilməzdir. Belələrinin adının jurnalistika ilə qoşa çəkilməsi absurd fikirdir. Ona görə də DTX tərəfindən başlanmış bu cür prosesləri dəstəkləmək lazımdır. Söhbət jurnalistikanın təmizlənməsindən və jurnalistikada peşəkarlığın daha üstün olmasından gedir. Hökumət orqanlarının inzibati müstəvidə başladığı bu tədbirləri dəstəkləməliyik və bu gələcəkdə də davam etdirilməlidir. Bir tərəfdən Azərbaycan Mətbuat Şurası səviyyəsində ictimai qınaq mexanizmi, digər tərəfdən isə rəsmi dövlət qurumları tərəfindən aparılan inzibati tədbirlər əminəm ki, sonda nəticə verəcək. Əslində burada kimlərsə bunu jurnalistikaya qarşı həyata keçirilən tədbirlər kimi qələmə verməyə çalışsalar da, o tədbirlərin jurnalistika kimi yozulması qəti surətdə yol verilməzdir. Çünki həmin adamlar jurnalist deyil və onların məşğul olduqları sənət də jurnalistika deyil. Həmin adamlar cinayətkardır və cinayət yollarında pul qazanmağa meyilli şəxslərdir".

***Ceyhun Rasimoğlu***

## Vüqar Rəhimzadə: "Prezidentin regionlara hər səfəri xalqa xidmətin təzahürüdür"



"Davamlı iqtisadi inkişaf, yüksək rifah dövlət siyasətinin əsasını təşkil edir. Dövlətimizin başçısı İlham Əliyevin bütün çıxışlarının əsasında bu tezis dayanır ki, həyata keçirilən siyasətin təməlində vətəndaş amili dayanır. İrəli sürülən təşəbbüslərin xalq tərəfindən dəstəklənməsi ölkədə yüksək ab-havanı təmin etməklə yanaşı, xalq-iqtidar birliyinin daha da möhkəmlənməsini şərtləndirir". Bu fikirləri YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, ölkə Prezidenti İlham Əliyevin bölgələrə ardıcıl səfərləri, hər səfərindən sonra həmin rayonların sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi məqsədilə Tədbirlər Planını təsdiqləməsi, Prezidentin Ehtiyat Fondundan vəsaitlərin ayrılması və s. kimi mühüm tədbirlər həm ölkənin hərtərəfli inkişafına, həm də xalqın sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən addımlardır: "Cənab Prezident İlham Əliyevin bu günlərdə Beyləqan rayonuna səfəri də bu tərkibdəndir. Səfər çərçivəsində bir sıra mühüm sosial obyektlərin açılışında və təməlqoyma mərasimlərində iştirak edən dövlətimizin başçısının ictimaiyyət nümayəndələri ilə görüşündə göstərdiyi səmimiyyət diqqətdən kənarda qala bilməz. Möhtərəm Prezidentimizin rayon ictimaiyyəti ilə mehriban görüşləri, Beyləqan rayon sakini ilə birgə mahnı ifa etməsinin ictimaiyyət tərəfindən necə rəğbətlə, yüksək əhval-ruhiyyə ilə qarşılandığı sakinlərin fikirlərindən də aydın görünür. Bu səmimiyyət bir daha belə bir reallığa işıq saldı ki, cənab İlham Əliyev hər kəsin Prezidentidir, xalqa xidmət missiyasını yüksək səviyyədə, layiqincə yerinə yetirməklə, daim çıxışlarında qarşıya qoyduğu bu tapşırığın- "Hər bir dövlət məmuru öz xalqına xidmət etməlidir" real həyatda ifadəsidir. Rayon sakinlərinin bildirdiyi kimi, vətəndaşlarla bir yerdə olmaq, onlara arxalanmaq, onlarla ünsiyyət yaratmaq, arzu və təkliflərinə, istəklərinə vaxtında cavab vermək qürurvericidir. Cənab İlham Əliyevin rayon sakinləri qarşısında "Mən həmişə bu dəstəyə arxalanmışam, mənə güc verən sizin mənə olan inamınızdır" cavabı hakimiyyətin yeganə mənbəyinin xalq olmasının göstəricisidir. Möhtərəm Prezidentimiz Azərbaycanın uğurlarından bəhs edərkən həmişə "insan amili, insan kapitalı" anlayışının mahiyyətini diqqətə çatdırır və bu tapşırığı verir ki, məmurlar yaddan çıxarmamalıdırlar ki, onlar xalq üçün işləyirlər, xalqın xidmətçiləridir".

YAP Siyasi Şurasının üzvü açıqlamasında regional inkişaf proqramlarının uğurlu icrasından, cənab İlham Əliyevin Sərəncamı ilə regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiqlənməsinin inkişafın davamlılığına geniş yol açmasından bəhs edib. Bu mühüm məqamı xüsusi vurğulayıb ki, yeni iş yerlərinin açılması yoxsulluğun aradan qaldırılması və məşğulluğun daha da artırılmasına öz müsbət təsirini göstərir. İstifadəyə verilən hər bir obyekt onlarla, yüzlərlə insanın işsizlik probleminin həllini təmin edir. Bu isə öz növbəsində sosial müdafiənin gücləndirilməsi deməkdir.

V.Rəhimzadə dövlətimizin başçısı İlham Əliyevin bölgələrin potensial imkanlarından səmərəli istifadə etmək məqsədilə təsdiqlədiyi dövlət proqramlarının uğurlu nəticələrinə söykənərək bu fikri də açıqlayıb ki, bu gün paytaxt və bölgələr arasında fərq tamamilə aradan götürülüb: "Hazırda Azərbaycanın hər rayonu, kəndi, qəsəbəsi inkişaf, tərəqqi dövrünü yaşayır. Bütün rayonlar arasında sağlam rəqabət gedir. Cənab Prezident İlham Əliyevin açıqladığı satistikaya əsasən ötən il Azərbaycanın bölgələrinə 24 səfər edib. Bu səfərlər zamanı həm işlərə nəzarət etmək üçün imkan yaranır, həm də yerlərdə vətəndaşlarla görüşərək onları narahat edən problemlərin həlli istiqamətində göstərişlər verilir. Rayonların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, o cümlədən infrastruktur layihələri ilə bağlı bir çox sərəncamlar imzalanıb. Bu sərəncamlar bölgələrimizdə yüksək nəticələrə yol açıb. İnsanların rahat, yüksək rifah şəraitində yaşaması prioritet məsələlərdəndir".

V.Rəhimzadə vurğulayıb ki, xalq-iqtidar birliyi, eyni zamanda, vətəndaş amilinə verilən dəyərdən irəli gələrək qarşıya qoyulan tapşırıqların uğurlu icrası cəmiyyətdə yüksək ab-havanın yaranmasını şərtləndirir. "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm" vədini ölkə Prezidenti İlham Əliyev atdığı addımlarla, bütün fəaliyyəti ilə təsdiqləyir.

# Saray nənəmiz - xalqımızın əyilməz ruhunun analıq təcəssümü

### *Yaxud böyük şəxsiyyətin nəhənglik nümunəsi*

***Müqəddəs Azərbaycan torpağı tarix boyu bütün dünyaya örnək olan qadınlar, analar, nənələr bəxş edib. Bu gerçəklik nə yaxşı ki, xalqımıza məxsus olan böyük şərəfdir. Bəlkə də, dünyanın bir çox ölkələrində ana məfhumu Azərbaycanda olduğu qədər qiymətləndirilmir, dəyərləndirilmir və "Cənnət anaların ayaqları altındadır" kəlamının xaslığı, özəlliyi, mötəbərliyi xalqımızda ən üstün meyar olaraq qiymətləndirilir.***



## Bu mənzərə barədə hələ çox danışılacaq...

Bu günlərdə Şamaxıda baş verən zəlzələ nəticəsində, dağılan isti ocaqlardan biri də, ana evi idi - Saray nənənin evi. Bir tərəfi uçulmuş evin astanasında oturan 92 yaşlı Saray nənə şalına bükələnərək və nəzərlərini uzaqlara dikərək, götür-qoy edirdi. Götür-qoy edirdi ki, Allahın işi olan təbii fəlakət baş verməyinə verib, amma nə etmək olar, hadisədir və ondan qaçmaq da olmaz. Fəqət, dağılmış evin bərpasını, təmirini etmək lazımdır. Ancaq dövlət var, dövlətin rəhbəri var və elə bir rəhbəri ki, hər an öz vətəndaşının yanındadır. Elə bu fikirlərə daldığı andaca, hətta gözləmədiyi məqamda, sadə bir kəndli evi olan həyətinə dövlət başçısı daxil olur və Saray nənəyə yaxınlaşaraq, bir oğul kimi onu salamlayır, üzündən öpür. Saray nənə isə Onun əlindən öpmək istəyir... O, Saray nənənin bu istəyinin qarşısını alaraq, ağbirçək ananın əlindən öpür... Bu mənzərə barədə hələ çox danışılacaq və dünyanın heç yerində dövlət başçılarının nümayiş etdirmədikləri bu sadəlik, Prezidentimizin nümunəsində hər kəsə bir örnək oldu - harada ana, ağbirçək varsa, onun qarşısında ehtiram göstərmək lazımdır. Bu, həm də bir çoxlarına dərs oldu, böyük-kiçiklik, mili-mənəviyyat dərsi - bir oğul nümunəsi, bir ana hörməti və bir ağbirçəyə verilən ən ali dəyər!

## Şəhid anası qarşısında baş əymək, şəhid atasına öz əlindən su içirmək, Saray nənənin əlindən öpmək...

Dövlət başçımızın hələ bu təsirli olaydan öncə, şəhid ailələri ilə görüşündə daha bir ağbirçək ananın qarşısına gedib onu salamlaması, qarşısında baş əyməsi, şəhid atası olan ağsaqqala isə öz əlindən su içirməsi, artıq özü-özlüyündə Onun Prezident olması ilə yanaşı, həm də böyük Şəxsiyyət, böyük Övlad olduğunu sübuta yetirdi.

Bu gün, dövlət başçımız deyir ki, Saray nənə kimi nənələr Azərbaycan xalqının əyilməz ruhunu təcəssüm etdirir. Yəni bu, həm də o deməkdir ki, Prezidentimiz məmləkətimizin hansı bölgəsinə gedirsə-getsin, Onun üçün ana, nənə, ağbirçək, ağsaqqal hər yerdə ehtirama, qayğıya layiqdir və belə də olacaq. O, Saray nənənin timsalında bütün analarımızın, nənələrimizin əlindən öpərək, öz nəhəngliyini göstərmiş oldu. "Saray nənə kimi nənələr, analar bizim milli-mənəvi dəyərlərimizi əsrlər boyu qoruyan insanlar olublar. Hər bir Azərbaycan qadını Saray nənəyə oxşamaq istəyir. Məncə, bu, belədir. Baxın, evi dağılmış 92 yaşında bir qadın, bu insanda nə qədər nikbinlik var. Çünki Saray nənədə inam var ki, dövlət onun yanında olacaq" dedi Prezidentimiz bu günlərdə verdiyi müsahibəsində.

Məgər bu gözəl və qürurverici ifadələrdən həm də sonsuz fəxr hissləri keçirməmək olarmı?

## "Biz əsrlər boyu yaşayan bir xalq, bir millət, inkişaf edən bir millət olaraq, Saray nənə kimi nənələrə borcluyuq" kəlamının məntiqi sübutu!

Bəli, Saray nənədə həm də köklü şəkildə formalaşmış, milli-mənəvi dəyərlərimizi özündə birləşdirən canlı azərbaycançılıq məfkurəsi var. Bu mənada, Prezident İlham Əliyev müsahibəsi əsnasında təəssüratlarını bölüşərkən deyir: "Sözün düzü, mən Şamaxıya gedəndə, bilmirdim ki, Saray nənə ilə rastlaşacağam. Mən gedib zəlzələdən ziyan çəkmiş evlərə baxırdım, oradakı vəziyyətlə tanış olurdum. Saray nənəni görəndə, mən bir daha əmin oldum ki, Azərbaycan xalqı nə qədər böyük xalqdır. Biz xalqımızla fəxr edə bilərik. Ən ağır vəziyyətdədir. Onun evi uçub. Sözün düzü, yəqin heç bilmirdi ki, kimsə onun köməyinə gələcək, ya gəlməyəcək. Onun evi təmir olunacaq, ya olunmayacaq, yeni ev tikiləcək, yoxsa yox. Amma bu insanda nə qədər inam, nikbinlik, xeyirxahlıq var. Saray nənə kimi nənələr Azərbaycan xalqının əyilməz ruhunu təcəssüm etdirir. Biz əsrlər boyu yaşayan bir xalq, bir millət, inkişaf edən bir millət olaraq, Saray nənə kimi nənələrə borcluyuq. Ona görə bu görüş məndə də çox böyük təəssürat yaratdı, böyük bir iz buraxdı. Ümid edirəm ki, tezliklə Saray nənə ilə bir daha görüşəcəyəm və onun yeni evinin açarını ona təqdim edəcəyəm".

Bu sözlər, bilavasitə hər bir azərbaycanlıya göstərilən münasibət, hər bir azərbaycanlı anasına, ağbirçəyinə, ağsaqqalına, xanımına, övladına edilən müraciət, verilən vəd idi. Hər bir azərbaycanlının Prezidenti olan Cənab İlham Əliyevin daim yerinə yetirdiyi qətiyyətli vədi!

**Rövşən RƏSULOV**

# "Sosial müavinətlərin məbləğinin artırılması ilə bağlı iş aparılır"



"Sosial müavinətlərin məbləğinin artırılması ilə bağlı iş aparılır. Müavinətlərin sayı çoxdur, onların unifikasiyasına ehtiyac var". SİA-nın xəbərinə görə, bu fikirləri Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev dünən keçirilən mətbuat konfransında deyib. Bu gün 80-ə qədər müavinət növünün olduğunu deyən nazir söyləyib ki, onların daha da sadələşdirilib cəmləşdirilməsinə, eyni zamanda onların məbləğinə kompleks şəkildə baxılır: "Bəzi müavinətlərin vaxtı keçib, bəzi müavinətlərin məbləği aşağıdır. Bəzi kateqoriya insanlar var ki, bundan kənarda qalıblar. Onlarla bağlı layihə hazırlanır, konseptual yanaşma olacaq". S. Babayev qeyd edib ki, müavinət alanlar 500 min nəfərdir: "Tələsik qərar da vermək olmaz, çünki bu 500 min insanın həyatına təsir edəcək addımdır. Biz bunu ətraflı araşdırırq. Asiya Bankının, Dünya Bankıın ekspertlərini dəvət etmişik, onlar da rəylərini verdikdən sonra yekun sənədi verəcəyik".

# Azərbaycan xalqının və dövlətinin maraqlarına qarşı çıxış edən ünsürlər sosial şəbəkələrdə söyüş rəzilliyindən mənəvi terror vasitəsi kimi istifadə edirlər

## *Azərbaycan Respublikası Milli Məclisinin deputatı Kamaləddin Qafarovun yap.org.az-a müsahibəsi*

***-Kamaləddin müəllim, əvvəlcə ölkə prezidentinin bu müsahibəsinin əsas özəlliklərini, onun aktuallığını şərtləndirən məqamlarla bağlı Sizin fikirinizi öyrənmək istərdik.***

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Real " TV-yə verdiyi geniş müsahibə ölkə ictimaiyyətinin böyük marağına səbəb olub. Bu müsahibə ölkədə gedən inqilabi quruculuq işlərinə işıq salmaqla bərabər, Azərbaycanın gələcək iqtisadi və siyasi inkişaf strategiyasına, sosial siyasətin əsas parametrlərinə və xalqın bir sıra taleyüklü məsələlərinə aydınlıq gətirməklə yadda qaldı.

Doğrudan da Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin bu müsahibəsi istər ölkə daxilində, istərsə də onun hüdudlarından çox-çox uzaqlarda böyük maraqla qarşılanmışdır. Prezidentimizin vətəndaşlar qarşısında bir növ hesabat xarakteri daşıyan, dərin təhlilə və geniş məna tutumuna malik hesabatının media vasitəsi ilə reallaşmasının özü maraqlı və original bir hadisədir.

Bu müsahibədə beynəlxalq siyasətin əsas parametrlərinə çevik reaksiya, ölkə daxilində baş verən inqilabi qurubyaratmaq və davamlı inkişaf strategiyasının əsas hədəfləri ilə bağlı zəngin informasiya vardır. Mediaya verdiyi müsahibənin əsas məqamları islahatların mahiyyəti və genişləndirilməsi, onun mərhələləri, struktur dəyişiklikləri, ölkə həyatının bütün sahələrində şəffaflığın bərqərar olması, hazırkı mərhələdə media ilə münasibətlərin daha da təkmilləşdirilməsi və digər məsələlərdir.

***-Ölkəmiz yeni islahatlar dövrünə qədəm qoyduğu üçün bu sahədə görülən işlərin və qarşıda duran vəzifələrin xarakterindən danışmaq yerinə düşərdi..***

- Azərbaycanın praqmatik düşüncə tərzinə və ölkənin ümumi qüdrətinin artmasına yönələn iqtisadi-siyasi və sosial siyasəti özünün miqyası və effektivliyi ilə bütün dünyada tanınır. Davamlı, uğurlu islahatların kecirilməsi bu siyasətin ayrılmaz tərkib hissəsidir. Prezidentimiz İlham Əliyevin da qeyd etdiyi kimi, bu islahatların əsası 1993-cü ildə, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev geniş xalq kütlələrinin



çağırışı ilə ikinci dəfə hakimiyyətə gələrkən qoyulmuşdur. Böyük öndərimiz həmin vaxtlar dövləti və dövlətçiliyimizi qoruyaraq onun stabil inkişaf yoluna qədəm qoyması üçün çox böyük səylər göstərdi, Azərbaycanı dinamik inkişaf yoluna çıxardı.

İslahatların ikinci mərhələsi 2003-cü ildən Azərbaycanın sükanı arxasına keçən, ulu öndərin ideya-siyasi irsini yaşadaraq daha da zənginləşdirən, H.Əliyevin nəhəng quruculuq arzularını yaradıcı şəkildə reallaşdıran İlham Əliyev cənablarının hakimiyyətə gəldiyi dövrdən başlandı. Keçən 15 il ərzində Azərbaycan daha da inkişaf etdi, qüvvətləndi, nəinki regionun, hətta dünyanın inkişaf etməkdə olan qabaqcıl ölkələrindən birinə cevrildi.

Müasir dövrün çağırışları və tələbləri ilə bağlı labüd olan islahatları Azərbaycan Prezidenti möhtərəm İlham Əliyev müsahibədə çox dəqiq izah edir və əsaslandırır: "2019-cu ildən bizim islahatlarımızın yeni mərhələsi başlayır. Bu da təbiidir. Çünki ötən il keçirilmiş prezident seçkilərində Azərbaycan xalqı mənə bir daha böyük etimad göstərib və mən bu seçkilərə islahatlar gündəliyi ilə getmişəm. Təbii ki, keçən ilin ikinci yarısından başlayaraq islahatların dəqiqləşdirilməsi, müəyyən edilməsi və ardıcıllığı haqqında çox geniş işlər aparılırdı və bu ilin əvvəlindən yeni islahatlara start verildi. Ona görə də 2019-cu ildən başlayan islahatların əsas hədəfi Azərbaycanı müasir, inkişaf edən və gələcəkdə inkişaf etmiş ölkəyə çevirməkdir, ölkədə mövcud olan nöqsanları aradan qaldırmaqdır, vətəndaşları narahat edən problemləri tamamilə gündəlikdən çıxarmaqdır, insanların rifah halını yaxşılaşdırmaqdır, daha güclü, qüdrətli dövlət qurmaqdır." Prezidentimizin müsahibəsi xalq qarşısında ən mükəmməl hesabat və strateji fəaliyyət proqramıdır.

***-Kamaləddin müəllim, çox təəssüf ki, bu davamlı inkişaf, qurubyaratmaq əzmi xaricdəki bədxahlarımızın, ilk növbədə "sapı özümüzdən olan baltaların" ürəyincə deyil və onlar hər vəchlə ölkədə qarışıqlıq yaratmağa, görülən işlərə kölgə salmağa can atırlar...***

- Bəri başdan deyim ki, siz qeyd edən şəxslərin xalqımızla, onun keçmişi və gələcəyi ilə heç bir əlaqəsi yoxdur, ola da bilməz. Azərbaycan xalqının və dövlətinin maraqlarına qarşı çıxış edən, anti-Azərbaycan dairələrin xidmətçisinə çevrilən həmin ünsürlər mediadan, sosial şəbəkələrdən , söyüş rəzilliyindən mənəvi terror vasitəsi kimi istifadə edirlər. Bəlli xarici qüvvələr tərəfindən dəstəklənən, daha doğrusu, şirnikləndirilən bu manqurtlar Azərbaycan xalqına qarşı təhqiramiz ifadələr səsləndirməklə yanaşı, həm də aldıqları çirkli vəsait qarşılığında cəmiyyətə dağıdıcı çağırışlar da edirlər. Azərbaycana qarşı qarayaxma kampaniyasının aparılması və dezinformasiyaların tüğyan etməsi cəmiyyətdə çaşqınlıq yaratmaq, ölkədə qarışıqlıq yaratmaq kimi miskin bir məqsədə hesablanıb. Amma bu cılız insanların cəhdləri cəmiyyətimizin üzvləri tərəfindən ikrah, təpki və nifrətlə qarşılanır.

İqtidarın saysız-hesabsız uğurlarını "həzm edə bilməyən" "beşinci kalon" təmsilçilərinin nəticəsizliyə məhkum olan Sizif cəhdləri hiddət, təəssüf doğurur, məğlubiyyət və tövbəyə məhkumdur.Bütün bu cəhdlər faydasızdır, çünki Azərbaycan cəmiyyəti artıq keçmişlərdə mövcud olmuş toplum deyildir, dövlət və dövlətçiliyə yönələn istənilən cəhdi dəf etməyə qadirdir.

Müasir Azərbaycan dünya miqyasında ən inkişaf etmiş, stabil ölkələrdən biridir və Azərbaycan xalqı Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən daxili və xarici siyasəti dəstəkləyir, dövlətimizin rəhbərliyinə öz yüksək inam və etimadını qətiyyətlə nümayiş etdirir. Məhz bu səbəblərdən özünü radikal qüvvələr adlandıran törtöküntülərin Azərbaycanda sabitliyi pozmaq, cəmiyyətdə qarışıqlıq yaratmaq cəhdləri heç bir nəticə verməyəcəkdir.

## Rusiyada 11 mindən çox Azərbaycan vətəndaşı oxuyur



2018-2019-cu tədris ilində Azərbaycandan olan 205 nəfərin RF-də büdcə hesabına pulsuz təhsil alması üçün kvota ayrılıb. Ümumiyyətlə, təhsilin bütün növləri üzrə, aspirantura da daxil olmaqla 11 mindən çox Azərbaycan vətəndaşı oxuyur. Onlardan 1017 nəfəri federal büdcə vəsaitləri hesabına, 10284 nəfəri kommersiya əsasında təhsil alır.

AZƏRTAC xəbər verir ki, "Rossotrudniçestvo" agentliyinin rəhbəri Eleonora Mitrifanova bu məlumatı RF Dövlət Dumasında keçirilmiş "Rusiya ilə Azərbaycan arasında mədəni körpülər mədəniyyətlərarası dialoqun əsasıdır" mövzusunda dəyirmi masada səsləndirib. O qeyd edib ki, Azərbaycanda 130 min nəfərlik rusdilli diaspor yaşayır. Bu, ən iri rusdilli icmalardan biridir. Digər tərəfdən, hazırda Rusiya ərazisində 2,5 milyon Azərbaycan vətəndaşı çalışır. Zəngin mədəni əlaqələr siyasi əlaqələrin mühüm əsasıdır və onları tamamlayır. İlk növbədə ölkələrimizin liderləri Vladimir Putin və İlham Əliyevin münasibətləri çox səmərəli və intensivdir. Bizim nazirlər müntəzəm olaraq görüşürlər. Keçən həftə Patriarx Kirill Azərbaycan Prezidenti ilə görüşüb. Rəmzi haldır ki, Azərbaycan Rusiyanın üçüncü ölkələrlə danışıqlar aparması üçün dəfələrlə qonaqpərvər beynəlxalq məkan kimi çıxış edib və bu missiyanı davam etdirir. Biz Azərbaycanın bu töhfəsini yüksək qiymətləndiririk".

## "Prezidentin Azərbaycan insanına olan münasibəti hər kəs üçün nümunədir"



"Prezident İlham Əliyevin Azərbaycan insanına olan münasibəti hər kəs üçün nümunədir. Xüsusilə də məmurlar ölkə başçısından dərs götürməlidirlər". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Elman Məmmədov deyib. Ölkə başçısının hər zaman vurğuladığı ifadəni xatırladan deputat bildirib ki, Cənab Prezidentin söylədiyi kimi hər bir məmur xalqının xidmətçisidir: "Məmurlar xalqın qayğısına qalmalıdır. Ölkə başçısı atdığı addımları ilə bu nümunəni bütün məmurlara göstərməkdədir. Son dövrlərdə Azərbaycan Prezidentinin şəhid ailələri ilə görüşü, zəlzələ bölgəsinə səfəri zamanı zərər çəkən vətəndaşlarla səmimi münasibəti, ötən gün Beyləqanda xalqla bərabər olması, yaşından asılı olmayaraq hər kəsə göstərdiyi isti münasibət, körpə uşaqlara olan qayğı, ahıllarla mehriban davranış bir nümunədir".

E. Məmmədov qeyd edib ki, Ölkə başçısının Şamaxıda zəlzələdən zərər çəkən Saray nənəyə qarşı addımı əsil Azərbaycan kişisinin ağsaqqal və ağbirçəklərə, qadınlara, ümumilikdə insanlara olan nümunəvi münasibətdir: "Ən kiçik vəzifədən yüksəyə doğru hər kəs bu addımlardan ibrət götürməli, vətəndaşlara qayğı göstərməyin vacibliyini dərk etməlidirlər. Xalqdan qaçmaq , yuxarıdan aşağı baxmaq, vəzifədən istifadə hallarına yol verməl olmaz. İnsanları qıcıqlandırmaq deyil, onlara qayğı ilə yanaşmaq vacibdir". Deputat vurğulayıb ki, vəzifədə olan məmurların ilk işi xalq üçün çalışmaqdır: "Vəzifə var dövlət yığmaq, özün üçün yüksək şəraitli həyat düzəltmək üçün verilmir. Vəzifə xalqa xidmət üçün verilir. Prezident kürsüsündən yüksək vəzifə yoxdur. Prezident İlham Əliyevin kürsüsündən asılı olmayaraq xalqın yanında olması, digərləri üçün dərs olmalıdır".

***Nailə Məhərrəmova***

## Səfirimiz Pakistanın Milli Assambleyasının sədri ilə görüşüb



Azərbaycan Respublikasının Pakistan İslam Respublikasındakı səfiri Əli Əlizadə Pakistan İslam Respublikasının Milli Assambleyasnın sədri Əsəd Qayser ilə görüşüb.

Səfirlikdən SİA-ya verilən məlumata görə, Əli Əlizadə Azərbaycan Milli Məclisi sədrinin salamlarını Assambleyanın spikerinə çatdıraraq, Pakistanın Azərbaycan üçün dost və qardaş ölkə olduğunu qeyd edib. Ölkələrimiz arasında münasibətlərin ən yüksək səviyyədə inkişaf etdiyini, bütün beynəlxalq məsələlərdə hər iki ölkənin bir-birini dəstəklədiyini bildirən səfir Azərbaycan və Pakistan arasında dostluq və qardaşlıq münasibətlərinin yaranmasında parlamentlərin önəmli rolunun olduğunu qeyd edib. Səfir 2012-ci ildə Pakistan Senatının xarici əlaqələr komitəsi, 2017-ci ildə isə Pakistan Milli Assambleyasının xarici işlər üzrə daimi komitəsinin Xocalı Soyqırımını tanıyan, həmçinin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyərək Ermənistanın işğal olunmuş Azərbaycan torpaqlarından dərhal çıxmasını tələb edən qətnamələrin qəbul edilməsinin bu dostluğun və qardaşlığın bir təzahürü olduğunu və daim minnətdarlıqla qarşılandığını vurğulayıb.

Pakistan Islam Respublikası Milli Assambleyasının sədri xoş salamlarının Azərbaycan Milli Məclisinin sədrinə çatdırılmasını xahiş edib və onu Pakistanda görməkdən məmnun olacağını vurğulayıb. Spiker Pakistanın Azərbaycanla olan yaxın dostluq və qardaşlıq əlaqələrini yüksək qiymətləndirdiyini və bu əlaqələrin gücləndirilməsində maraqlı olduğunu diqqətə çatdırıb. Milli Assambleyada yeni Pakistan-Azərbaycan parlamentlərarası dostluq qrupunun formalaşdığını bildirən spiker bu qrupa Pakistanın 100-dən artıq millət vəkilinin qoşulduğunu və bunun Azərbaycana artan marağın göstəricisi sayıldığını, Azərbaycanın etibarlı tərəfdaş olduğunu bildirib. Azərbaycan və Pakistanın bir birinə dəstəyinin önəmini vurğulayan Əsəd Qayser parlamentlərarası əlaqələrin daha da möhkəmləndirilməsi istiqamətində işlərin davam edəcəyini, bununla yanaşı digər sahələrdə də əlaqələrin genişlənməsinə dəstəyin göstəriləcəyini qeyd edib.

# Ədəbi-bədii fikir tariximizin görkəmli nümayəndəsi

## *Dövlət başçısının Sərəncamı ilə akademik Həmid Araslının 110 illiyi qeyd ediləcək*



***Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar Azərbaycan dövlətinin inkişafına, onun sosial-iqtisadi bazasının yüksəlməsinə, regionların sosial-iqtisadi inkişafına, insanların rifah halının yüksəldilməsi istiqamətində səhiyyədə yeni islahatların həyata keçirilməsinə və s. yönəlmişdir. Eyni zamanda, bu sərəncamlar dövlətin təməlinin möhkəmlənməsinə, Azərbaycanın dünyaya inteqrasiya tempinin artmasına töhfələrini verir. Prezidentin verdiyi sərəncamlar sırasında Azərbaycanın milli-mənəvi dəyərlərinin keşiyində duran və onun inkişafına ömrünü həsr edən ziyalıların yubiley mərasimlərinin keçirilməsi, fəxri ad və mükafatların verilməsi də xüsusi yer tutur.***

Ötən gün Prezident İlham Əliyevin imzaladığı Sərəncamla, məhz çoxsaylı araşdırmaları ilə respublikada ədəbiyyatşünaslığın inkişafına dəyərli töhfələr vermiş akademik Həmid Araslının 110 illiyi qeyd ediləcək. Sərəncama əsasən, ədəbi-bədii fikir tariximizin tədqiqi, təbliği və yüksəkixtisaslı kadrların hazırlanması işində təqdirəlayiq xidmətlərini nəzərə alaraq, akademik Həmid Araslının anadan olmasının 110-cu ildönümünün qeyd olunmasını təmin etmək məqsədi ilə Azərbaycan Milli Elmlər Akademiyası Təhsil Nazirliyi ilə birlikdə akademik Həmid Araslının 110 illiyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirəcək.

H.Araslı XX əsr Azərbaycanının elmi və ədəbi-ictimai həyatında aparıcı mövqeyə malik şəxsiyyətlərdən biri olub. Onunla bağlı olan mənbələrdə qeyd olunur ki, Şərq xalqlarının ədəbibədii fikir tarixinə, qədim türk, fars və ərəb dillərinə yaxşı bələd olan alim, tədqiqatlarında olduğu kimi, dərsliklərində də klassik Azərbaycan şeirinin incəliklərinin elmi-nəzəri şərhinə xüsusi diqqət yetirmiş, nəsilləri milli türkçülük ruhunda tərbiyələndirmək, soykökünə bağlı məsələləri doğru-düzgün şərh etmək üçün əlindən gələni əsirgəməmişdir.

Alimin yaradıcılığının mühüm bir dövrü repressiyanın baş alıb getdiyi ağır illərə təsadüf edir. Dəfələrlə haqsız tənqidlərə, xüsusilə də, "Kitabi-Dədə Qorqud"un nəşri ilə bağlı təzyiq və hücumlara məruz qalır. Ancaq prinsipiallıq göstərərək yad təsirlərə uymur və öz mövqeyini sona qədər qətiyyətlə müdafiə edir. "Kitabi-Dədə Qorqud"la bağlı deyilənlərin müqabilində, nə öz "günahını" boynuna alır, nə də abidə ilə bağlı deyilən sözlərlə razılaşdığını dilinə gətirir. "Dədə Qorqud" eposu ilə yanaşı, Xaqani, Xətai, Hadi və Səməd Vurğun yaradıcılıqlarının yanlış mövqedən qiymətləndirildiyi zamanlarda da öz mövqeyini dəyişmir.

H.Araslı Azərbaycan ədəbiyyatı ilə bağlı təkcə keçmiş Sovet məkanında deyil, dünya miqyasında aparılan tədqiqatları diqqətlə izləyir, onun qədimliyinə xələl gətirən mülahizələrə həssaslıqla yanaşır, Azərbaycan ədəbiyyatı və onun nümayəndələri haqqında söylənilən haqsız fikirlərə, qərəzli mülahizələrə qarşı çıxır və həqiqəti axıra qədər müdafiə edir. Azərbaycan ədəbiyyatı tarixinin sistemləşdirilərək, elmi istiqamətdə öyrənilməsində H.Araslının müstəsna xidməti olmuşdur. Onun Azərbaycan ədəbiyyatı tarixi ilə bağlı mühüm xidmətlərindən biri də 1960-cı ildə nəşr olunan üç cildlik "Azərbaycan ədəbiyyatı tarixi" kitabıdır.

Türkdilli Azərbaycan ədəbiyyatının təşəkkülündə mühüm rol oynamış Qazi Bürhanəddin, Nəsimi, Kişvəri, Xətai, Füzuli kimi sənətkarların da Azərbaycan ədəbiyyatı tarixindəki yerini müəyyənləşdirərək, onların bədii-ictimai fikir tarixinə təsirini aydınlaşdırır. Azərbaycan şairlərindən İ.Həsənoğlu, Q.Bürhanəddin, İ.Nəsimi, Ş.İ.Xətai, Kişvəri, Həbibi, Füzuli, Qövsi, Saib, Məsihi, Fədai, Vidadi, Vaqif və başqaları haqqında ilkin mötəbər tədqiqat, dəyərli elmi-nəzəri ümumiləşdirmələr də H.Araslıya məxsusdur.

H.Araslının klassik irsin öyrənilməsi ilə bağlı fəaliyyətinin mühüm bir hissəsi Nizami və Füzuli yaradıcılığının tədqiqi istiqamətində olmuşdur. SSRİ və dünya ədəbiyyatşünaslığında yanlış konsepsiyaların geniş yayıldığı bir zamanda, Nizami sənətinin milli ruhuna xüsusi həssaslıqla yanaşmış, "Şairin həyatı", "Nizami Gəncəvi əsərləri" və ayrı-ayrı tədqiqatlarında şairin öz irsinə əsaslanaraq, onun türkcə düşünüb farsca yazdığını elmi dəlillərlə sübut etmişdir. Alim Nizami sənətinin XII əsr Azərbaycanında təsadüfi hadisə olmadığını, şairi ictimai-mədəni yüksəlişlə səciyyələnən əlamətdar bir dövr və mərhələnin yetirdiyini söyləyir.

H.Araslı Nizaminin Qumdan olması haqqındakı əfsanəni alt-üst etmişdir. O, Məhəmməd Füzulinin də ardıcıl tədqiqatçısı və Azərbaycandan uzaqlarda tanınan naşiri olmuşdur. Şairin həyat və yaradıcılığının müxtəlif problemlərinə həsr etdiyi 20-dən artıq məqaləsi və çoxillik araşdırmalarının yekunu - rus və Azərbaycan dillərində nəşr edilən "Böyük Azərbaycan şairi Füzuli" monoqrafiyası vardır.

H.Araslı Nəsiminin də ilk araşdırıcılarından sayılır, "Fədakar şair" oçerki, elmi məqalələr və Nəsimi əsərlərinin nəşrlərinə müqəddimələr yazmışdır. Nəsiminin 600 illik yubileyi ərəfəsində nəşr olunan "İmadəddin Nəsimi" kitabçasında şairin həyatının bəzi qaranlıq məqamlarına aydınlıq gətirmiş, Nəsimi şeirinin dil və poetik ifadə gözəlliklərindən söz açmışdır. O, mətnşünas alim kimi də çox məhsuldar olmuşdur. Bu sahədəki fəaliyyəti Azərbaycan mətnşünaslıq elmində ayrıca bir mərhələ təşkil edir. Alim müxtəlif illərdə Məhsəti, Nəsimi, Xətai, Füzuli, Saib, Qövsi, Vidadi, Vaqif və başqa görkəmli şairlərin əsərlərini dəfələrlə nəşr etdirmişdir. Bu sahədəki axtarışları, klassik irslə yaxından tanışlığı, əlyazmalarla işləmək səriştəsi sayəsində mətnlər üzərində təshihlər aparır, sözlük və şərhlərə yenidən nəzər salır. Bunun nəticəsidir ki, tərtib etdiyi mətnlər tədqiqatçılar tərəfindən daha mötəbər sayılır. H.Araslı 1939-cu ildə "Kitabi-Dədə Qorqud"u nəşr etdirməklə Azərbaycan ədəbiyyatına, mədəniyyətinə, eləcə də, bütün türkologiya elminə böyük xidmət göstərmişdir. Alim əsərin nəşri ilə yanaşı, onun tədqiqi və təhlili ilə də ciddi məşğul olmuşdur. O, türk xalqlarının müştərək eposu olan "Kitabi-Dədə Qorduq"da dil, üslub, hadisələrin cərəyan etdiyi məkan etibarilə Azərbaycanla bağlılığını konkret dəlillərlə əsaslandırmış, dastanda çətin anlaşılan müasir Azərbaycan dilindən çıxmış bir çox kəlmələrin folklor və klassik şairlərin əsərlərində işlənməsini bədii nümunələrlə təsdiq edərək, abidənin dilinin Azərbaycan dilinə yaxınlığını göstərmişdir. Böyük əmək sərf etdiyi bu abidə ilə bağlı axtarışlarını sonralar da davam etdirərək, 1962 və 1978-ci illər nəşrlərində bəzi təshihlərlə daha da təkmilləşdirmişdir.

Alim digər Şərq xalqlarının ədəbi irsinə də geniş maraq göstərmiş, Azərbaycan ədəbiyyatı və klassikləri ilə bağlı olan Şərq şairləri Firdovsi, Cami, Hafiz, xüsusilə, böyük özbək şairi Əlişir Nəvai irsini də tədqiq etmiş, orta əsrlər Azərbaycan ədəbiyyatının əlaqələrinə dair ilkin araşdırmaların müəllifi kimi də məşhurlaşmışdır.

H.Araslı elmi-tədqiqat işləri ilə təşkilatçılıq fəaliyyətini özündə birləşdirən elm adamlarından idi. Azərbaycanın mədəni-ictimai həyatında yaxından iştirak edirdi. Nizami adına Ədəbiyyat Muzeyinin yaranmasında onun böyük zəhməti olmuşdur. 1940-cı ildən öz elmi-təşkilati fəaliyyətini bu muzeylə bağlamış, əvvəlcə elmi katib, sonra elmi işlər üzrə direktor müavini, 1960-1968-ci illərdə isə direktor vəzifəsində çalışmışdır.

H.Araslı həyatı boyu yüksək ixtisaslı kadrların hazırlanması üçün də fədakarlıqla çalışmış, təkcə Azərbaycanda deyil, Özbəkistanda, Türkmənistanda və Tatarıstanda aspirant, dissertant və doktorantlara rəhbərlik etmiş, onlarca elmlər doktoru və 50-yə qədər elmlər namizədi yetişdirmişdir.

***Zümrüd BAYRAMOVA***

## Bölgələrdə yeni uşaq bərpa mərkəzləri yaradılacaq



Prezident İlham Əliyevin uğurlu sosial siyasətinə uyğun olaraq, sağlamlıq imkanları məhdud uşaqlar üçün reabilitasiya infrastrukturu daim təkmilləşdirilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Uşaq Bərpa Mərkəzində və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılmış Xüsusi Qayğıya Ehtiyacı olan Uşaqların Dövlət Reabilitasiya Müəssisəsində müasir tələblərə uyğun reabilitasiya şəraiti mövcuddur. İl ərzində həmin mərkəzlərdə 3500-dən artıq sağlamlıq imkanları məhdud uşağa səmərəli və sınanmış metodlar əsasında reabilitasiya xidmətləri göstərilir.

Nazirlikdən AZƏRTAC-a verilən məlumata görə, eyni zamanda, dövlət başçısının tapşırığına əsasən, nazirlik tərəfindən sağlamlıq imkanları məhdud uşaqlar üçün reabilitasiya infrastrukturunun respublikamızın bölgələri üzrə genişləndirilməsi də nəzərdə tutulur. Bu məqsədlə cari ildə Şəmkir və Qəbələ rayonlarında, 2020-ci ildə isə Quba, Masallı, Ağcabədi, Xaçmaz və Lənkəran rayonlarında uşaqlar üçün bərpa mərkəzlərinin tikintisinə başlanması nəzərə tutulub. Bölgələrdə yeni uşaq reabilitasiya müəssisələrinin yaradılması regionlarda yaşayan sağlamlıq imkanları məhdud uşaqların bərpa müalicəsi imkanlarının artırılmasında, onlar arasında sağlamlıq imkanları məhdudluğun qarşısının alınmasında əhəmiyyətli rol oynayacaq.

## "Avropa Komissiyası xəbərdarlıq edir", yaxud Brüsselin yeni qara siyahısı



Əfqanıstan, Pakistan, İran, İraq, Suriya, Liviya, Səudiyyə Ərəbistanı, Tunis, Yəmən, Şimali Koreya, Baham adaları, Birləşmiş Ştatların Vircin adaları, Panama, Efiopiya, Qana və Nigeriya ilə sövdələşmələr Avropa İttifaqına təhlükə törədə bilər. AZƏRTAC xəbər verir ki, Avropa Komissiyası tərəfindən tərtib edilən və açıqlanan siyahıya məhz bu ölkələrin adları salınıb.

Avropa Komissiyasının mətbuat xidmətindən bildiriblər ki, adıçəkilən ölkələrdə və ərazilərdə "pulların yuyulması" və terrorizmin maliyyələşdirilməsi əleyhinə mübarizə sahəsində ciddi qüsurlar var. Avropa Komissiyası bu sənəddə təkidlə Aİ ölkələrinə həmin dövlətlərdən olan fiziki və hüquqi şəxslərin, o cümlədən maliyyə təsisatlarının iştirakı ilə maliyyə əməliyyatlarının əsaslı şəkildə yoxlanılmasını tövsiyə edir.

## "Xocalıda məhv olmuş 8 ailə" filmi nümayiş olunacaq



Prezident İlham Əliyevin Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar imzaladığı Sərəncamdan irəli gələn vəzifələrin icrası çərçivəsində Azərbaycan İlahiyyat İnstitutunda (AİI) fevralın 18-də tədbir keçiriləcək.

İnstitutdan AZƏRTAC-a bildirilib ki, tədbirdə "Xocalıda məhv olmuş 8 ailə" filmi nümayiş etdiriləcək. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Erməni təcavüzünün tanıdılması" İctimai Birliyi tərəfindən lentə alınmış filmdə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni qəsbkarlarının Xocalı şəhərində dinc azərbaycanlılara qarşı törətdiyi soyqırımdan bəhs edilir.

## İcazəsiz ova cəhd edən şəxs saxlanılıb

Bioloji Müxtəlifliyin Qorunması və Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin İnkişafı Departamentinin əməkdaşları tərəfindən Hacıqabul rayonunun Pirsaat kəndi yaxınlığında icazəsiz ova cəhd edən əcnəbi vətəndaş saxlanılıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, araşdırma zamanı təqsirkar şəxsin Birləşmiş Ərəb Əmirliyi vətəndaşı Al Oud Mubarak Al Kaam Saeed Alameri olduğu məlum olub.

Faktla bağlı brakonyer barəsində akt, protokol tərtib olunub və ona inzibati qaydada 2000 manat məbləğində cərimə tətbiq edilib.

# AVCİYA bələdiyyə seçkiləri ilə bağlı hazırlıq işlərinə start verib




Fevralın 14-də Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) ölkəmizdə keçiriləcək bələdiyyə seçkiləri ilə bağlı hazırlıq işlərinə start verib. AZƏRTAC xəbər verir ki, bununla bağlı keçirilən tədbirdə AVCİYA-nın vitse-prezidenti Dəyanət Musayev Assosiasiyanın fəaliyyəti barədə məlumat verib. Bildirib ki, AVCİYA-nın nümayəndələri müxtəlif missiyaların tərkibində Bolqarıstan, Gürcüstan, Belarus, Moldovada keçirilən seçkiləri müşahidə ediblər. AVCİYA sıralarında 36 ölkənin nümayəndələrini birləşdirən Seçki Müşahidəçilərin Dünya Şəbəkəsinin üzvüdür.

AVCİYA-nın seçki qərargahının rəhbəri Məhərrəm Zülfüqarlı qeyd edib ki, qərargah 2019-cu ilin dekabrında keçirilməsi nəzərdə tutulan bələdiyyə seçkiləri ilə əlaqədar müvafiq işləri özünün fəaliyyət proqramı əsasında təşkil edir. Assosiasiya 2019-cu ilin dekabrında keçirilməsi nəzərdə tutulan bələdiyyə seçkiləri ilə bağlı fəaliyyət proqramına uyğun olaraq, ilk mərhələdə bələdiyyələrə aid beynəlxalq təcrübənin öyrənilməsi, bələdiyyə seçkilərinə dair qanunvericilik bankının yaradılması, Seçki Məcəlləsinə dəyişikliklərlə bağlı tövsiyələrin hazırlanması, seçkiqabağı vəziyyətin monitorinqinin təşkili işlərini həyata keçirməyi planlaşdırır. Qərargahın fəaliyyətinə, həmçinin broşür və bülletenlərin hazırlanması, regionlarda seçici fəallığının artırılması üçün maarifçilik işlərinin, seçki prosesi ilə məşğul olan beynəlxalq təşkilatlarla əlaqələrin yaradılması və əməkdaşlığın təşkili, seçkilərin monitorinqi ilə məşğul olan digər ölkələrinin QHT-ləri ilə əməkdaşlığın genişləndirilməsi və görülmüş işlərlə bağlı KİV-ə mütəmadi məlumatlar vermək də daxildir. Qeyd olunub ki, AVCİYA seçkilərin şəffaf keçirilməsinə yardım məqsədilə 2004-cü ildən bu günədək bir sıra metodik vəsait və kitabçalar nəşr etdirib. Sonra müzakirələr aparılıb, suallar cavablandırılıb.

# "Heç bir insan başqa bir kimisə təhqir etməməlidir"



"Bu gün "söyüş kampaniyası"nı davam etdirən və Avropa oturan bəlli insanlar mənəviyyatca çox kasad, əxlaq normalarına riayət etməyən dəyərləri ölmüş adamlardırlar. Burada konkret olaraq bir neçə şəxslər var. Orduxan Teymurxan, Vidadi İsgəndərli, Sadıq Mirzəli, İnqilab Kərimov və digərlərini buna şamil etmək olar. Çünki normal mənəviyyata sahib olan, ailə tərbiyəsi görmüş bir şəxsiyyət heç bir halda kiminsə ailəsi haqqında təhqir işlətməz. Bizim mental dəyərlərimiz var". Bunu SİA-ya açıqlamasında Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədr müavini Niyaməddin Orduxanlı deyib.

BAXCP rəsmisinin sözlərinə görə, min illərdir formalaşmış Azərbaycan xalqının, türkünün, kişisinin dəyərləri var: "Bu dəyərlər hər zaman qorunur. Dini, milli və kimlik baxımından bunlar toxunulmaz sayılır. Amma sözügedən insanlar məqsədli şəkildə aldıqları təlimat əsasında bilərəkdən bu cür "söyüş kampaniyası"nı həyata keçirirlər ki, insanların gözü qarşısında qorxu, xof yaratsınlar. Siz fikir verin ki, bu adamlar kimə qarşı bunu istifadə edirlər. Dövlət maraqlarını müdafiə edən, cənab Prezidentə sədaqətli olan, daim milli maraqları müdafiə edən şəxslərə, partiya sədrlərinə, ölkə başçısının komandasında olan komanda üzvlərinə, ziyalılara, deputatlara və s. qarşı "söyüş kampaniyası" aparırlar. Onlar məqsədli şəkildə bu adamlara qarşı bu cür iyrənc mövqe tuturlar ki, dövlət maraqlarını müdafiə edən adamlar az olsun. Qorxu imicini möhkəmləndirmək üçün bu cür mənəviyyatsızlığa yol verirlər. Heç bir insan başqa bir kimisə təhqir etməməlidir. Bu təhqirlərə məruz qalan insanlardan biri də mənəm. Çünki mən sosial şəbəkədə minlərlə insanla işləyirəm və öz mövqeyimi açıqlayıram.

Mən "facebook"da Prezidentin oğlunun hərbi xidmətdə olan fotosu ilə əsgərlik yaşı çatmış, amma hərbi xidmətə getməyən AXCP sədrinin oğlunun şəklini müqayisə edib yaymışam. Mənim həmin statusum Azərbaycan mətbuatında informasiya olaraq dərc edilib. Həmin yazının oxunma sayı 130 mindən artıq idi. Bu yazı mətbuat üzərindən 140 min adama çatıb. Mən sadəcə olaraq həqiqəti yaymışam. Əli Kərimlinin oğlu fərrarilik etməklə məşğuldur. Əli Kərimli isə aldatdığı gənclərdən istifadə edərək özünün siyasi məqsədlərini həyata keçirmək istəyir. Əli Kərimlinin oğlunun 28 yaşı var, amma gəlib əsgərlik borcunu yerinə yetirmir. Axı sənin oğlun kimdən artıqdır. Ona görə də məni saxta profillərlə "söyüş kampaniyası"na tutdular. Onlar bunu planlı şəkildə edirlər. Bu gün o təhqirə ən ağır formada məruz qalan da məhz "SƏS" Media Qrupunun rəhbəri Bəhruz Quliyevdir. Onu məqsədli şəkildə çəkindirmək istəyirlər ki, dövlət maraqlarını müdafiə edən, Prezidentin mövqeyini müdafiə edən yeni ölkə başçısına sədaqətli olan adamlar bu cür təhqirlərə məruz qalsınlar. Eləcə də onlar Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri Əli Həsənova qarşı bu cür iyrənc yollara əl atırlar. Onların məqsədi sadəcə olaraq insanlar arasında xof yaratmaqdır".

**Ceyhun Rasimoğlu**

# İnternet mediasının inkişafı prioritetlik təşkil edir

*Əsas məsələlərdən digəri isə, maliyyələşəcək qəzetlərin sayını azaltmaq deyil, daha keyfiyyətli qəzetçiliyə dəstək olmaqdır*

**İllərdir ki, medianın inkişafı və bu sahənin daha böyük uğurlara imza atması üçün müvafiq tədbirlər görülür, xüsusilə, dövlətin apardığı çoxşaxəli siyasətində bu amilə diqqət yetirilir. Əbəs deyil ki, KİVDF-nin həmin istiqamətdə apardığı davamlı, ardıcıl işləri istər qəzetçiliyin, istərsə də internet mediasının inkişafı baxımından bir çox nailiyyətlərə imza atıb.**




Daha bir amil budur ki, zaman inkişaf etdikcə, informasiya texnologiyalarına da ehtiyac artır və bu inkişaf trayektoriyasının əhatəsi genişlənir. Artıq o da, bir fakta çevrilib ki, cəmiyyəti informasiya ilə təmin edən əsas məqam, bilavasitə internet resurslarıdır. Bunu daim nəzarətində saxlayan Azərbaycan dövləti mediaya mütəmadi dəstəyini əsirgəmir.

## İnternet mediasında hüquqi prosedurların təkmilləşdirilməsinə ehtiyac var və müvafiq addımların atılması zərurəti yaranıb

Əbəs deyil ki, Mətbuat Şurasının İdarə Heyətinin toplantısında da bu kimi vacib məsələlərə toxunulub, həmçinin, qeyd olunub ki, qarşıda duran başlıca vəzifələrdən biri internet- medianın özünə hüquqi münasibətlər sistemində yer tutmasıdır. "Bəzi qanunlarda ayrı-ayrı müddəalar yer alsa da, məsələ ümumi xarakter daşıyır, internet-medianın təşkilati-hüquqi forması müəyyənləşdirilməmiş qalır" deyə qeyd edilən iclasda bu məsələnin tezliklə həllini tapması üçün müvafiq qurumlara müraciət olunmasının zəruriliyi diqqətə çatdırılaraq, qeyd olunub ki, MŞ mövcud istiqamətdə hazırladığı təkliflər sırasında internet-media ilə bağlı ayrıca qanunun olması da şərtdir. Beləliklə, onu da, qeyd edə bilərik ki, hüquqi prosedurların təkmilləşdirilməsinə ehtiyac var və müvafiq addımların atılması zərurəti yaranıb.

Söz yox ki, internet mediasının tərkib hissələrindən biri də sosial mediadır və informasiyaların əsas yükü saytlarla yanaşı, sosial mediaların da üzərinə düşdür, ona görə də, hər hansı bir ayrıca qurumun yaradılması və bu istiqamətdə fəaliyyətini reallaşdırması inkişaf edən medianın tələbləri sırasındadır.

## Qəzetçilik baxımından media bazarının gücləndirilməsi vacib şərtlərdəndir

Bu arada, onu da qeyd etmək mümkündür ki, print-media sahəsində KİVDF tərəfindən qəbul edilən müvafiq qərar, eləcə də, qəzetçilik fəaliyyətinin davam etdirilməsi üçün irəli sürülən təkliflər öz münbitliyi ilə seçilir. MŞ-nin iclasında, bununla bağlı bildirilib ki, qəzetçilik baxımından media bazarının gücləndirilməsi vacib şərtlərdəndir. Misal üçün, əvvəllərdə olduğu kimi, qəzetlərin metro stansiyalarının çıxışında və insanların sıx toplaşdıqları digər yerlərdə satışı təşkil olunmalı, o cümlədən, səyyar satış bərpa olunmalıdır. "Elə mühit yaradılmalıdır ki, hazırkı durumda dövlət dəstəyindən faydalanmaq şansı olmayan nəşrlərin gələcəkdə buna imkan əldə etmələrinə şərait yaransın. Belə olduqda, onlarda fəaliyyət üçün stimul yaranacaq. Bu isə, öz növbəsində, rəqabət formalaşdıracaq" deyə təkliflərdə vurğulanıb.

## Dövlət medianın tərəqqisi üçün davamlı addımlar atır və bu addımlar Azərbaycanın internet və qəzetçilik mediasının birgə inkişafına öz töhfələrini verir

Bu, həm də belə qənaətə gəlməyə əsas verir ki, KİVDF-nin maliyyələşmə şərtlərində dəyişiklər etməsi yeni dövrün tələbindən irəli gələn zərurətdir. Yəni əsas məsələlərdən biri maliyyələşəcək qəzetlərin sayını azaltmaq deyil, daha keyfiyyətli qəzetçiliyə dəstək olmaqdır. Buna görə də, yalnız tiraj və yayım yox, eyni zamanda, məzmun məsələsi də ön planda olmalıdır. Bu baxımdan, MŞ-nin İdarə Heyətinin üzvləri mövcud məqama xüsusi diqqət yetirərək, bildiriblər ki, internet-medianın geniş vüsət aldığı hazırkı şəraitdə oxucu xəbər saytlarındakı informasiyanı yenidən qəzetdə görmək istəməz. Deməli, yeni dövrün tələbləri qəzetçiliyə də yeni yanaşmanı gətirməlidir və bu yol dünyanın bir çox qabaqcıl ölkələrində gedilir.

Söz yox ki, dövlət medianın tərəqqisi üçün davamlı addımlar atır və bu addımlar Azərbaycanın internet və qəzetçilik mediasının birgə inkişafına öz töhfələrini verir.

**Rövşən NURƏDDİNOĞLU**

# Səfir: "AZƏRTAC-ın iki beynəlxalq media qurumuna rəhbərlik etməsi ona olan etimadın göstəricisidir"



Bu ilin noyabrında Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatında (OANA) sədrlik AZƏRTAC-dan Koreya Respublikasının Yonhap agentliyinə keçəcək. Hazırda tərəflər təşkilatın Seulda keçiriləcək XVII Baş Assambleyasına hazırlıq işləri görürlər. AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov və Koreya Respublikasının Azərbaycandakı səfiri Kim Tonq Op bununla bağlı məsələləri müzakirə ediblər.

Qeyd olunub ki, 2015-ci ildə əməkdaşlıq müqaviləsi imzalayan AZƏRTAC və Yonhap hazırda uğurlu informasiya mübadiləsi həyata keçirir, OANA-nın fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində birgə səylər göstərirlər. Aslan Aslanov diqqətə çatdırıb ki, bu ilin aprelində Vyetnamda OANA İcraiyyə Komitəsinin növbəti iclası keçiriləcək. İclasda Seulda baş tutacaq Baş Assambleyaya hazırlıq məsələləri müzakirə olunacaq. Məlumat verilib ki, Yonhap-ın 2019-2022-ci illər üçün OANA sədrliyinə namizədliyi təşkilatın 2016-cı ilin noyabrında Bakıda keçirilən Baş Assambleyasında 35 ölkədən olan 40-dan artıq üzv agentlik tərəfindən qəbul edilib. Bu məsələdə Yonhap-a AZƏRTAC böyük dəstək verib. AZƏRTAC-ın sədrlik etdiyi Dünya Xəbər Agentlikləri Konqresində də Koreya Respublikasının agentliyi fəal tərəfdaşlardan biri kimi tanınır. İki ölkə arasında yüksələn xətlə inkişaf edən əlaqələrdən danışan Kim Tonq Op media sahəsində də əməkdaşlığın genişləndiyini deyib. O, AZƏRTAC-ın iki böyük beynəlxalq media qurumuna rəhbərlik etməsini agentliyə olan etimadın göstəricisi olduğunu vurğulayıb. Diplomat Yonhap ilə AZƏRTAC arasındakı səmərəli əməkdaşlıqdan məmnunluğunu ifadə edib.

# Qaradağ rayon icra hakimiyyətinin hesabatı keçirilib

*Yığıncaqda 2018-ci ildə rayonun sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr barədə məlumat verilib*

***Dünən Qaradağ rayon icra hakimiyyətinin 2018-ci ildə rayonun sosial-iqtisadi inkişafının yekunlarına və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 11 yanvar 2019-cu il tarixli iclasında və 29 yanvar 2019-cu il tarixində "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransındakı nitqlərindən irəli gələn vəzifələrə həsr olunan hesabat yığıncağı keçirilib.***



Tədbir iştirakçıları, ilk öncə, rayonun mərkəzində ucaldılan Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüblər. Sonra yığıncaq iştirakçıları 2018-ci ildə rayonun sosial-iqtisadi inkişafının yekunlarına həsr olunan filmi seyr ediblər.

Heydər Əliyev Mərkəzində keçirilən yığıncaqda hesabat məruzəsi ilə çıxış edən Qaradağ rayon icra hakimiyyəti başçısı Süleyman Mikayılov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 11 yanvar 2019-cu ildə sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlətimizin başçısı geniş nitqində ölkəmizin əldə etdiyi yüksək nailiyyətləri vurğulayaraq, 2018-ci il respublikamızda olduğu kimi, Bakının Qaradağ rayonunda da davamlı sosial-iqtisadi inkişaf təmin edilib, bir sıra layihələr uğurla həyata keçirilib. Qeyd olundu ki, 2018-ci ilin ən mühüm hadisəsi ölkə Prezidenti İlham Əliyevin Qaradağ rayonuna səfərləri və bu səfərlər Qaradağ rayonunda bir çox sahələrdə müasir infrastrukturun yaradılması ilə əlamətdar olub. Belə ki, ölkə Prezidenti İlham Əliyev yanvarın 9-da Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksində RO-RO terminalının, mayın 14-də Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin, mayın 24-də məcburi köçkünlər üçün salınmış "Qobu Park" yaşayış kompleksinin və yeni istifadəyə verilən Lökbatan-Qobu avtomobil yolunun, mayın 29-da Səngəçal terminalında Cənub Qaz Dəhlizinin, avqustun 1-də Lökbatan qəsəbəsində Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzillərin və avtomobillərin verilməsi mərasimində və avqustun 13-də Lökbatan qəsəbəsində Abşeron Logistika Mərkəzinin açılışlarında iştirak edibdir.

S.Mikayılov onu da vurğulayıb ki, rayon üzrə iqtisadiyyatın bütün sahələrində mövcud olan artım dinamikası saxlanılıb, ötən il sənaye sahəsində 1 milyard 793 milyon 70 min manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 16 faiz çox sənaye məhsulu istehsal edilib, iqtisadi və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 700 milyon 993 min manat məbləğində investisiya yönəldilmiş, 2169 yeni daimi iş yeri açılıb, rayonda sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması sahəsində işlər görülübdür: "Prezident İlham Əliyevin 2011-ci il 6 aprel tarixli Sərəncamına, müvafiq olaraq, Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan ayrılmış maliyyə vəsaiti hesabına rayonun Qobustan qəsəbəsindəki 17 saylı Birləşmiş Şəhər xəstəxanası müasir tələblər səviyyəsində yenidən qurulmuş və ən yeni texnoloji avadanlıqlarla təchiz edilərək, cari ilin 14 yanvar tarixində Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə istifadəyə verilib".

Yığıncaqda, o da qeyd olunub ki, rayon icra hakimiyyətinin təşkilatçılığı ilə tarixi günlər və yubileylərlə bağlı kütləvi tədbirlər keçirib, ümumxalq bayramları, ayrı-ayrı peşə günləri təntənə ilə qeyd olunub, müxtəlif sahələrdə fərqlənənlər mükafatlandırılıblar. Vətəndaşların müəyyən edilmiş vaxtlarda qəbulu, onların müraciətlərinə əsaslandırılmış yazılı cavabların verilməsi, şəffaflığın artırılması, mövcud nöqsanların aradan qaldırılması məsələləri daim diqqət mərkəzində saxlanılıb.

Məruzə ətrafında müzakirələrdə Qaradağ rayon icra hakimiyyəti başçısı aparatın ərazi-idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Rövşən Səmədzadə və Dövlət Sosial Müdafiə Fondunun Qaradağ rayon şöbəsinin müdir əvəzi Elşən Fətullayev çıxış edərək, görülmüş işlər və qarşıda duran vəzifələr haqqında ətraflı məlumat veriblər.

YAP Qaradağ rayon təşkilatının sədri, millət vəkili Aydın Hüseynov çıxış edərək, rayonda görülmüş işləri yüksək qiymətləndirərək, qarşıda duran vəzifələrdən və həlli vacib məsələlərdən söhbət açıb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının sektor müdiri Tağı Tağıyev yığıncaqda çıxış edərək, 2018-ci ildə ölkəmizdə bütün sahələrdə əldə olunan uğurlar haqda ətraflı məlumat verərək, 2019-cu ildə qaradağlılara böyük uğurlar arzulayıb. Tədbirdə cari ilin konkret hədəflərini əks etdirən qərar qəbul olunub.

Sonda toplantı iştirakçıları adından Prezident İlham Əliyevə müraciət qəbul olunub.

***RƏFİQƏ KAMALQIZI***

# "Şahsevən Kredit İttifaqı" MMC-nin vəzifəli şəxslərinin qanunsuz əməlləri ifşa edildi

Ölkəmizdə son illər uğurla həyata keçirilən dövlət proqramları və bu sahədə görülən tədbirlər qeyri-neft sektorunun davamlı inkişafına, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına təkan verib. SİA-nın verdiyi məlumata görə, bəzi sahibkarlar tərəfindən ayrılmış vəsaitlərin təyinatı üzrə istifadə olunmaması, iqtisadiyyatın inkişafına kölgə salan korrupsiya və rüşvətxorluq kimi neqativ amillərə, o cümlədən əhalini narahat edən korrupsiya hüquqpozmaları və onları törətmiş vəzifəli şəxslərə qarşı mübarizə istiqamətində kompleks, sistemli və ardıcıl tədbirlər davam etdirilməkdədir.



Belə ki, "Şahsevən Kredit İttifaqı" Məhdud Məsuliyyətli Cəmiyyətinin vəzifəli şəxslərinin qanunsuz hərəkətləri ilə bağlı İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığa Kömək Milli Fondundan daxil olmuş müraciət Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

Həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində MMC-nin idarə heyətinin sədri Fayəddin Fərmanovun rəsmi sənədlərə bilə-bilə yalan məlumatlar daxil etməklə özü və ya üçüncü şəxs üçün qanunsuz olaraq maddi və sair nemətlər əldə etmək məqsədilə vətəndaşların razılığı olmadan onların adına kredit rəsmiləşdirməklə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən büdcə vəsaitləri hesabına ayrılaraq ona etibar edilmiş güzəştli kredit resursundan təyinatı üzrə istifadə etməyərək fondun 200.000 (iki yüz min) manat məbləğində pulunu mənimsəməsinə şübhələr üçün əsaslar olduğundan fakta görə cinayət işi başlanıb və F.Fərmanova Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə və ya israf etmə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham elan olunmaqla barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda F.Fərmanovun digər cinayət əməllərini törədib-törətməməsi, eləcə də cinayətin digər iştirakçılarının müəyyən edilərək məsuliyyətə cəlb olunmaları istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Tərtər rayonunda 2018-ci il ərzində görülən işlərə dair hesabat tədbiri keçirilib

***Cəbhə xətti ilə təmas ərazisində yerləşən Tərtər rayonunda 2018-ci il ərzində görülən işlərə dair hesabat yığıncağı keçirilib. Yığıncaq iştirakçıları əvvəlcə rayonun mərkəzi meydanında ucaldılan Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül-çiçək dəstələri düzüblər.***





Mədəniyyət Mərkəzində keçirilən yığıncaqda iştirakçılar, ilk öncə, 2018-ci ildə rayonun sosial-iqtisadi göstəricilərini əks etdirən stendlərə, istehsal edilən məhsullara və video-slayda baxıblar. Yığıncaqda çıxış edən Tərtər rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov 2018-ci ildə görülən işlər barədə məlumat verərək, bildirib ki, digər rayonlarda olduğu kimi, Tərtər rayonunda da sosial-iqtisadi inkişafın sürətləndirilməsi, iqtisadiyyatın daha da möhkəmləndirilməsi, infrastrukturun yeniləşməsi, sahibkarlığın dəstəklənməsi, əhalinin sosial-iqtisadi problemlərinin həlli və yaşayış məntəqələrinin abadlaşdırılması sahəsində geniş işlər görülüb: "Belə ki, ötən ildə rayon 6 nömrəli tam orta məktəb və Qazyan, Seydimli, Qaradağlı kənd ümumi orta məktəblərin binaları əsaslı təmir olunubdur. Rayonda 100 yerlik körpələr evi-uşaq bağçası, Bayandur və Poladlı kəndlərində modul tipli məktəblər, Ağkənd kəndində yeni kitabxana istifadəyə verilib. Bundan savayı uzunluğu 21,5 kilometr olan Buruc-Güləbatlı-Xoruzlu-Kəbirli-Bayandurlu-Qaradağlı kəndlərarası avtomobil yolu yenidən qurulub, Tərtər-Hindarx avtomobil yolunun Tərtər rayonunun ərazisindən keçən 21 kilometrlik hissəsinin əsaslı təmirinə başlanılıb".

Rayon rəhbəri il ərzində rayonun ekoloji və bioloji vəziyyətinin yaxşılaşdırılması üçün də müxtəlif addımlar atıldığını vurğulayıb: "İl ərzində vətəndaş cəmiyyəti qurumları ilə birgə bir neçə yerdə ağacəkmə aksiyaları, "Təmiz Tərtər" ekoloji tədbirləri keçirilibdir. Məruzə ətrafında rayon polis şöbəsinin rəisi, polis polkovniki Elçin Qasımov, Dövlət Sosial Müdafiə Fondunun Tərtər rayon şöbəsinin müdir əvəzi Anar Rüstəmov, Subartezian Quyularının İstismarı İdarəsinin baş mühəndisi İltifat İsmayılov, Bəyimsarov kənd sakini-fermer Fazil Vəliyev, Tərtər özünümüdafiə batalyonunun sabiq qərərgah rəisi, Qarabağ müharibəsi veteranı Pənah Məmmədov çıxış ediblər.

Tədbirdə rayon icra hakimiyyəti tərəfindən 2018-ci ildə kənd təsərrüfatı sahəsində fərqlənən bir qrup sahibkara Fəxri Fərmanlar və qiymətli hədiyyələr təqdim olunub.

Hesabat yığıncağında Prezident Administrasiyasının məsul işçisi Arif Novruzov, Milli Məclisin deputatı Sahib Alıyev çıxış edərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən sosial-iqtisadi inkişafdan, qazanılan uğurlardan, habelə, qarşıda duran vəzifələrdən danışıblar.

Sonda tədbir iştirakçıları adından Prezident İlham Əliyevə müraciət qəbul edilib.

***R.HÜSEYNOVA***

# Bolşevizm təfəkkürlü dağıdıcı düşərgə

*Təhqir və söyüş dağıdıcı düşərgənin fəaliyyət prinsipidir*

***Müxalifət düşərgəsində qarşıdurmaların baş verməsi heç də nə birincidir, nə də sonuncu. İlk gündən müxalifət adı altında siyasi meydana qarşıdurmalarla gəliblər və bununla da, gündəmdə qalmaq istəyiblər. Ancaq bu bədbəxtlər anlamırlar ki, müxalifətdə olmaq ağı-qara, düzü-əyri görmək, hakimiyyətə, ictimaiyyət nümayəndələrinə, ziyalılara, eləcə də, onların şər-böhtan kampaniyalarına dəstək vermək deyil.***



Bu əxlaqsızların simasını özündə birləşdirən AXCP sədri Əli Kərimli və onun silahdaşlarının sırasına nəzər yetirmək kifayətdir. Qənimət Zahid, Azər Əhmədov, Natiq Ədilov, Xədicə İsmayıl, Türkel Kərimlinin vaxtilə yayılmış videoları hələ də unudulmayıb. Bu insanlar onları, ilk növbədə, öz ailə üzvlərinin izlədiyinin, yəqin ki, fərqindədirlər. Amma görünür, onlar öz ailələrinə bunu da rəva görürlər.

Araşdırmalar göstərir ki, dağıdıcı düşərgə təmsilçiləri öz güclərini Avropadakı məlum anti-Azərbaycan şəbəkədən alırlar və fəaliyyətlərini də buna uygun koordinasiya edirlər. Eyni zamanda, əxlaqı korlanmış "sosial media qəhrəmanları" Avropada oturub, Azərbaycan əleyhinə təbligat aparırlar və dağıdıcı düşərgə təmsilçilərinə konkret istiqamət verirlər. Ən maraqlısı odur ki, xaricdəki siyasi buqələmunlar etiraz formalarını açıq və sivil formada göstərmək üçün məkan olaraq izdihamlı yerləri yox, ayaqyolların seçirlər. Bununla da, mahiyyət etibarilə "ayaqyolu müxalifəti" funksiyasını daşıdıqlarını göstərirlər. Başqa cür düşünmək də olmaz. Düşüncəsi və təfəkkürü sıfır olan Ə.Kərimli və onun birbaşa nəzarətində olan "cəbhə trolları" bütün təhqirləri qəbul edər, təki siyasi dividend əldə etsin.

## "Yada düşür xatirələr"

Neyləməlidirlər? Unudula-unudula gedirlər tarixin zibilliyinə. Həm də nə mitinqlər, nə böhtan çağırışlar, nə də iyrəncliklər bir nəticə vermir. İndi də unudulduqlarını görüb, qarşıdurmalarla gündəmdə qalmağın çıxış yolunu keçmişdə etdikləri qələtləri bir-bir yada salaraq, bir-birilərini təhqir etməyə başlayıblar. Belə ki, AXCP-"REAL", Müsavat-"REAL", ADP-"Milli Şura", AXCP-Müsavat, KXCP-"Milli Şura" və indi də Müsavat-"Ümid" arasında ziddiyyətlər səngimir.

Müsavat partiyasının başqanı Arif Hacılı və "Ümid" partiyasının sədri İqbal Ağazadə internet televiziyalardan birində 2003-cü ilin prezident seçkiləri mövzusuna həsr olunan debatda bir-birini təhqir edərək, oğru, satqın, səviyyəsiz adlandırmışdılar. "Ümid" partiyasının sədri İ.Ağazadə keçmişlə qalmaqal yaradaraq, gündəmdə qaldığını görüb. Səhər ayılanda, qarşısına məqsəd qoyub ki, Müsavat başqanı Arif Hacılıyla görüşsün. Görüşüb və bununla da təhqirin və söyüşün qiyməti bir qəpiyə olub və başlayıblar, nə başlayıblar. İ.Ağazadə müxalifətin bu günə kimi məğlubiyyətə getməsinin səbəbkarı keçmiş başqan İ.Qəmbər olduğunu deməsini qəbul etməyən A.Hacılı "Ümid" sədrini tərbiyəsiz və səviyyəsiz adlandırıb. Bu günlərdə əsəbləri soyumayan İ.Ağazadə sosial şəbəkələrdə yenidən yazıb ki, "Arif Hacılı, tərbiyəsizlikdə heç də İ.Qəmbərdən geri qalmırsınız. Bütün məğlubiyyətlərin də səbəbi elə sizin kimilərdir. Səviyyəsiz olmaqla yanaşı, həm də oğrusunuz. Bu sözü demişəm, yenə də deyirəm, sən o Hacılısan ki, mikrofon gətirmək adı ilə Azadlıq Meydanından qaçdın. İstəyirsən hər şeyi açım? Otağından hansı qadınların alt paltarında 3 milyon pulları qaçırdığını da bilirəm". Bu yerdə deyiblər: qaşınmayan yerdən qan çıxarmaq".

## Pənah Hüseynli yoldaşlarını "mat" qoydu

Elə bunun ardınca AXP sədri Pənah Hüseyn isə, müxalifət dostlarını elə "mat" qoydu ki, necə deyərlər, üzlərinə tüpürsəydi, ondan yaxşı idi: "Yaranmış vəziyyətlə dəqiq demək lazımdır. Nəinki 15-16 oktyabrda, bu günə qədər olanların bir adı var: məğlubiyyət. Öz miqyasına və nəticələrinə görə, ağır məğlubiyyətdir", P.Hüseynin sonrakı sözü isə, bir daha müxalifətin bu günə kimi nə düşüncəsi, nə də təfəkkürü dəyişib. Fakt: "Lakin nə dünyanın axırıdır, nə də demokratiyanın və demokratik düşərgənin. İlan qabığını atır, ağaclar yarpağını tökür, yer örtüyünü dəyişir. Ancaq nə ilan ölür, nə ağac quruyur, nə də yer dağılır. Tanrınınkı Tanrıya, şeytanınkı şeytana dönür. Biz də elə".

Bax budur, pas atmış müxalifətin düşüncəsi. Siz nə ilansız, nə ağac, siz şeytan və iblissiniz və bir illik hakimiyyət dövrünüzdə xalqa və dövlətə elədiklərinizi Tanrı sizi heç vaxt bağışlamayacaq. İndi nə qədər bir-birinizi söyürsünüz-söyün. Çünki bolşevizm təfəkkürlü dağıdıcı düşərgə "liderləri"ndən bunu gözləmək olar. Görünür, bu qarşıdurmalar hələ çox maskaları cırıb, həqiqətləri üzə çıxaracaq.

**R.HÜSEYNOVA**

# Bankın vəzifəli şəxslərinin qanunsuz əməlləri ifşa edilib



***Ölkəmizdə həyata keçirilən davamlı iqtisadi inkişafın mühüm şərtlərindən biri kimi şəffaflığın və maliyyə intizamının təmin edilməsi, aparılan iqtisadi islahatların korrupsiyaya qarşı mübarizə tədbirləri ilə dəstəklənməsi prokurorluq orqanları tərəfindən daim diqqət mərkəzində saxlanılmaqla dövlət qurumları ilə əlaqəli şəkildə korrupsiya hüquqpozmalarına qarşı kəsərli mübarizə tədbirləri davam etdirilir. SİA-nın verdiyi məlumata görə, "Nikoyl" İKB Açıq Səhmdar Cəmiyyətinin Sumqayıt filialının vəzifəli şəxslərinin qanunsuz əməlləri barədə daxil olmuş material Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.***

Həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində filialın müdiri Ruslan Talıbovun filialın digər vəzifəli şəxsləri Vüsal Qasımov, Nazim İsmayılov və Elşən Xıdırov ilə qabaqcadan əlbir olub vəzifə səlahiyyətlərindən sui-istifadə edərək heç bir biznes fəaliyyətlərinin olmadığını, veriləcək krediti biznes fəaliyyətinə sərf etməyəcəklərini və bununla əlaqədar kredit ödənişlərinin müqavilə şərtlərinə uyğun ödənilməsində problemlərin yaranacağını bildikləri halda, banka müraciət etmiş ayrı-ayrı şəxslərə 868 min manat məbləğində qanunsuz pul kreditinin verilməsinə görə onlardan 122 min manat pulu və digər əmlakı rüşvət kimi təkrarən istəyərək almalarına, həmçinin vəzifə saxtakarlığı edərək bankın işçilərinə məzmununda yalan məlumatlar olan biznes kreditinin rəsmiləşdirilməsinə nail olaraq bankın onlara etibar edilmiş 192 min manat məbləğində vəsaitini mənimsəmələrinə şübhələr üçün əsaslar olduğundan fakta görə cinayət işi başlayıb. Bundan başqa, istintaqın gedişində qeyd olunan vəzifəli şəxslərin dələduzluq edərək vətəndaşların kredit ilə aldıqları 451 min məbləğində olan əmlaklarını və nağd pul vəsaitlərini kreditin ödənişinə yönləndirəcəkləri adı ilə aldadaraq ələ keçirdiklərinə dair şübhələr müəyyən olunub.

Qeyd edilən vəzifəli şəxslər Cinayət Məcəlləsinin 178.3.2 (külli miqdarda dələduzluq), 179.3.2 (külli miqdarda mənimsəmə və ya israf etmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2 (təkrar rüşvət alma) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham elan olunmaqla R.Talıbov, V.Qasımov və E.Xıdırov barəsində məhkəmənin qərarı ilə həbs, N.İsmayılov barəsində isə polisin nəzarəti altına vermə qətimkan tədbirləri seçilib. Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların tam, hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin tam müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## AzerTelecom şirkətinin iştirakı ilə Beynəlxalq Təhlükəsiz İnternet Gününə həsr olunan tədbir keçirilib

Azərbaycanı beynəlxalq İnternet şəbəkəsinə bağlayan magistral (backbone) İnternet provayderi AzerTelecom şirkətinin iştirakı ilə STEP Kompüter Akademiyasında "Beynəlxalq Təhlükəsiz İnternet Günü"nə həsr olunan tədbir keçirilib.

Tədbir ölkəmizdə İnternetin təqdimi və İnternet təhlükəsizliyində ixtisaslaşan bir neçə yerli və beynəlxalq şirkətlərin nümayəndələrinin iştirakı ilə baş tutub, İnternet, onun yaranması, qlobal şəbəkədə təhlükəsizlik, istifadəçilərin üzləşdikləri əsas təhdidlər və s. kimi mövzularda faydalı müzakirələr aparılıb.

Tədbirdə çıxış edən AzerTelecom şirkətinin Baş Kommersiya Direktoru Samir Nuriyev qlobal İnternet şəbəkəsinin yaranması, mövcud texniki göstəricilər, Azərbaycanın İnternet şəbəkəsinə qoşulması və bu prosesdə magistral provayder AzerTelecom şirkətinin rolu, internetin gələcəyi kimi mövzulara toxunub.

Hazırda qlobal internet istifadəçilərinin sayının ümumilikdə 4 milyardı ötdüyünü, Azərbaycanın MDB məkanında İnternetin əhatə olunması, yayımına görə ilk yerdə(79%) olduğunu qeyd edən Samir Nuriyev internetin gələcəyi barədə danışaraq 2020-ci ildə 5 milyarddan çox insanınİnternetdən istifadə edəcəyini, qlobal şəbəkədən istifadədə ən böyük artımın inkişaf etməkdə olan ölkələrdə olacağını, Bulud texnologiyaların daha da inkişaf edəcəyini, Əşyaların İnterneti (IoT) İnternet haqqında təsəvvürü dəyişəcəyini və gələcəkdə İnternetin bir ekologiya dostu olacağını bildirib.

Tədbirdə çıxış edən digər məruzəçilər də öz növbələrində İnternetin distribusiyası, simli və simsiz İnternet növləri, şəbəkələr, sistem inzibatçılığı, sosial mühəndislik və fişinq hücumlarına qarşı təhlükəsizlik və s. barədə danışaraq öz təcrübələrini bölüşüblər. Beynəlxlaq Təhlükəsiz İnternet Günü ("Safer Internet Day - SID") hər ilin ikinci ayının ikinci həftəsinin ikinci günü qeyd edilir.Bu əlamətdar hadisə 2004-cü ildə Avropa Komissiyasının qərarı ilə təsis edilib. Məqsəd dünyada, xüsusən uşaq və gənclər arasında onlayn texnologiyalardan daha təhlükəsiz və məsuliyyətli istifadəni təbliğ etməkdir.

Azərbaycanın dinamik şəkildə inkişaf edən telekommunikasiya operatoru olan AzerTelecom 2008-ci ildə təsis edilib və ölkənin ilk mobil operatoru - Bakcell şirkətinin törəmə şirkətidir.AzerTelecom internetin topdan satışı, ayrılmış kanal xidməti, mobil və stasionar telekommunikasiya şəbəkələrində informasiyanın daşınması, beynəlxalq tranzit, SİP telefoniya, FTTx (fiber optik xətt xidməti), Data mərkəz xidmətləri, VPN (virtual şəxsi şəbəkə), DDOS hücumundan müdafiə və digər xidmətlər təqdim edir.

# Bakcell və ENGİNET "Təhlükəsiz İnternet günü" ilə bağlı təlimlər keçirib




Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell, Azərbaycanın ilk FTTH provayderi olan ENGİNET şirkəti ilə birlikdə məktəblilər üçün Beynəlxalq "Təhlükəsiz İnternet günü" və "Fərdi məlumatların mühafizəsi günü" ilə bağlı təlimlər keçirib.

"İnternetdən təhlükəsiz istifadə" metodlarına dair növbəti maarifləndirici təlimlər Xəzər Universiteti, Dünya Məktəbi və Hədəf Liseyində təşkil edilib. Azərbaycan Respublikasının Təhsil Nazirliyinin dəstəyi ilə icra olunan "Təhlükəsiz İnternet" layihəsi çərçivəsində təşkil olunan təlimlər zamanı şagirdlərə və pedaqoji heyətə təhsilin inkişafında faydalı resurs mənbəyi olan internet mühitindəki zərərli məzmunlar barədə məlumat verilərək internetdən təhlükəsiz istifadəyə dair qaydalar izah olunub. Həmçinin şagirdlərə Bakcell və ENGİNET şirkətlərinin birgə hazırladıqları "Təhlükəsiz İnternet Paketləri" barədə geniş məlumat verilib.

Qeyd edək ki, Bakcell bir neçə il bundan əvvəl istifadəyə verilmiş və artıq 4G şəbəkəsində də fəaliyyət göstərən "Təhlükəsiz İnternet Paketləri" uşaqlar üçün internetdən istifadənin təhlükəsiz olmasını təmin edir. Bu internet paketləri və ENGİNET şirkətinin "İnternet Filtrasiya Xidməti" sayəsində Bakcell abunəçiləri öz uşaqlarının internetdən təhlükəsiz istifadəsini təmin edə və onları zərərli və istənilməyən məzmundan qorumaq imkanına malikdirlər. "Təhlükəsiz İnternet" paketləri haqqında daha ətraflı məlumat https://www.bakcell.com/az/internet-safe-internet səhifəsinə əks olunur.

# İsgəndər Həmidovun özünüreklam cəhdi ifşa olundu

*Yaxud AMDP sədrinin "qaçdı-tutdu" oyunu baş tutmadı*

***Son vaxtlar AMDP sədri İsgəndər Həmidovun öz ətrafında süni ajiotaj yaratmaq cəhdləri və onun bu cəhdlərə nəyə görə əl atması məqamları üzə çıxmağa başlayıb. Belə ki, onun hələ ötən ilin sonlarından "liderliyi" ilə "xalq hərəkatı" adlı qondarma qurum yaradıb, digər müxalifət partiyalarını da həmin "hərəkat"a qoşmaq cəhdləri uğursuzluqla nəticələndi.***

O cümlədən, Həmidov müxalifətin "zirvə" toplantısı da təşkil etməyinə rəğmən, ciddi ofsaytda qaldı. Çünki "ana müxalifətçilik" uğrunda didişən AXCP və Müsavat partiyalarının "liderləri" nə İ.Həmidovu "xalq hərəkatı"nın rəhbəri, nə də onun "zirvəsini" tanımayaraq, bütün təşəbbüslərinə rədd cavabı verdilər. Məhz bundan sonra AMDP sədri özünüreklam marağını digər məsələlər ətrafında aparmağa başladı.

## Özlərinə yaxın sosial şəbəkə səhifələrində ictimai rəyi çaşdırmağa yönəlmiş dezinformasiya cəhdi dərhal üzə çıxdı

Misal üçün, bir neçə gün əvvəl, daha dəqiq desək, fevralın 12-də İ.Həmidovun Qazax rayonuna gedərkən, guya oradan yoxa çıxması ətrafında yaradılan saxta səs-küy, çox qısa müddətdə ifşa olundu. Özlərinə yaxın sosial şəbəkə səhifələrində ictimai rəyi çaşdırmağa yönəlmiş dezinformasiya cəhdi dərhal üzə çıxdı.

Bəs hadisə necə baş verib, AMDP sədrinin yalan və dezinformasiya yaymaq cəhdi necə ifşa olunub? Bununla bağlı, əslən Qazax rayonundan olan QHT sədri Arzuman Abdulkərimov mətbuata maraqdoğurucu məlumatlar verdi. Bir qazaxlı kimi, ata-baba yurdunda hər hansı bir insanın "yoxa" çıxması ilə bağlı iddiaların, ona təsir etdi-



yini deyən A.Abdulkərimov son anda İ.Həmidovun və ətrafının, sadəcə, yalan, şər və böhtan uydurduğunu deyib: "Açığını deyim ki, ilk andaca, bunun dezinformasiya və təxribat olduğunu düşündüm. Elə də oldu. Bir müddət sonra İ.Həmidov video-müraciət paylaşaraq, Qazaxa getdiyini elan etdi, sürücüsünü və onu müşayiət edən Murad (Qazax sakini olduğu bildirilir) adlı birinin polisə aparılaraq, təhqir və təzyiqlərə məruz qoyulduğunu bildirdi. Eyni zamanda, üzünü xaricdə yaşayan "söyüşcül vətənsizlərə" tutaraq, xarici dövlətlərdən bu insanların azad olunması barədə dəstək istəmələrini xahiş etdi".

## QHT sədri: "Əminəm ki, qazaxlılar gələcəkdə də bu insanların məkrli planlarını pozacaqlar"

QHT sədrinin sözlərinə görə, araşdırmaları zamanı məlum olub ki, "bəy" yaşına yaraşmayan yalanlar danışıb. "Nə onun sürücüsü, nə də Murad adlı şəxs polisə aparılıb və hər hansı təzyiqlərə məruz qalmayıb" deyən A.Abdulkərimova görə, sadəcə, Həmidova elə gəlirmiş ki, onu Qazaxda çox möhtəşəm qarşılayacaqlar. Lakin bu, baş vermədi: "Onun düşündüyünün əksinə olaraq, Qazaxda onu bir-iki adam qarşılayıb. Belə olduğu halda, öz pərtliyini gizlətmək üçün yalan məlumatlar yaymağa başlayıb. Əslində, başqa cür ola da bilməzdi. Çünki qazaxlılar ağı-qaradan seçməyi bacarırlar. Kimin nə yuvanın quşu olduğunu bilirlər. Əminəm ki, qazaxlılar gələcəkdə də bu insanların məkrli planlarını pozacaqlar".

A.Abdulkərimov digər bir maraqlı məqama da toxunaraq, deyib ki, bu gün istər xaricdə Azərbaycan dövlətinə qarşı çirkin və xain çıxışlar edənlər, istərsə də onların buradakı "ələkçiyə qıl verənləri" bu dəfə öz təxribatlarını reallaşdırmaqdan ötrü Qazax rayonunu seçiblər: "Bildiyimiz kimi, Qazax sərhəd rayonu olaraq, həssas bölgədi. Niyə məhz Qazaxı seçirsiniz? Yeri gəlmişkən, son zamanlar xaricdə məşkunlaşan söyüş şəbəkəsinin üzvü, Qazax hərbi hissəsinin keçmiş komandiri İsa Sadıqov da Qazaxla bağlı bəzi replikalar atır. Təxribat yaradaraq, ermənilərin əlinə fürsət verməkistəyirsiniz? Yox, "bəy", alınmaz. Bizlər imkan vermərik".

## Özünə "millətçi" deyən şəxs xaricə satılmaz!

Onun sözlərinə görə, bu gün özlərini "millətçi", "turançı" və s. adlandıran şəxslər, əslində, erməniçiliklə və erməni çörəyi yeməklə məşğuldurlar. Çünki özünü azərbaycanlı hesab edən şəxs heç vaxt dövlətinin, millətinin maraqlarını xarici qrantlara, erməni lobbisinə satmaz. Bu baxımdan, "özünə millətçi deyən şəxs xarici dövlətdən dəstək istəməz" deyə bildirən QHT rəhbəri bu ünsürlərin ölkədə xalq dayaqlarını itirdiklərini qeyd edib: "Amma nə edəsən, çünki Azərbaycan xalqının içərisində bütün dayaqlarınızı itirmisiniz. Ona görə də, ümidiniz xarici güclərə qalıb. Özünüzə yığışın".

Göründüyü kimi, İ.Həmidovun bu oyunbazlığı da əvvəlkilərtək fiaskoya uğradı. Necə ki, icazəsiz mitinq keçirməklə, ölkədəki sabitliyi pozmağa hazırlaşdığı kimi. Beləliklə, AMDP sədrinin növbəti "qaçdı-tutdu" oyunu da baş tutmamış qaldı.

**Rövşən NURƏDDİNOĞLU**

---



## Ələkçinin qıl verəni

**RƏFİQƏ**

***Bu gün hər bir müxalifət funksioneri bir "agenti" rolunda çıxış edir. Bir də niyə olmasın? Avropa ölkələrinə "siyasi mühacir" "sənədini vermək "asan bir işdir?" Ona görə də, zaman-zman, xarici ölkələrdəki ağalarına xidmət göstərən, təlimatlar alıb dövlət maraqlarına qarşı çirkin xəyanətkar fəaliyyət yolu tutan AXCP sədri Əli Kərimlinin dirijorluğu ilə "fəallaşan" Qənimət Zahid necə "agent" və yaxud da alçaq olmaya bilər? Bu günlərdə AXCP sədri Ə.Kərimli Q.Zahidə növbəti "naməsini" göndərib və dönə-dönə tapşırıb ki, istəyirsən, "iblis" donuna gir, istəyirsən, şeytanın dal ayağı ol, hamını AXCP-yə üzv etməyə çalış.***

Görünür, Əli "bəy"in "iblis" donunu geyən olmayıb. Bax, zəhərli ilan beləlɘrinə deyərlər. Gəl otur mənim ölkəmdə, özün də başla alçaqlığa. Mən də söz dedim, məgər Ə.Kərimli təkcə alçaqlıqla məşğuldur? Satqınçılıq və xarici qüvvələrə nökərçilik etməklə, aldığı pulları öz ailəsinə xərcləməyən bu mənəviyyatsız, ləyaqətsiz Ə.Kərimliyə züy tutan Cəmil Həsənli heç ondan geri qalmır. Belə də qeyrətsizlik olar? Cəmil Həsənli, hansı üzlə həyasızcasına şəhid ailələrinin "dərdinə qalmaq istəyirsən?"

Fransada maraqlı dairələrin ağuşuna sığınan manqurt Q.Zahid, nə abırsızcasına yenidən Azərbaycana əl uzatmaq sevdasına düşmüsən? Ancaq heç olmasa, bu gün düşünün ki, suyu bulandırma cəhdlərinizin perspektivi yoxdur.

Azərbaycanın müstəqil daxili və xarici siyasəti, yüksək beynəlxalq imici, milli və dövlətçilik maraqlarını hər şeydən üstün tutması, bəzi xarici dairələr kimi, Avropada oturub, agentlik edən satqınları da həmişə ciddi narahat edib.

Bədbəxtlər, bunu heç olmasa, anlayın ki, dövlətimizin heç bir qüvvənin qarşısında əyilməməsi, öz mövqeyini qətiyyətlə müdafiə etməsi, ardıcıl və prinsipial siyasətidir. Odur ki, sifarişlə çalışan dağıdıcı qüvvələr nə əvvəllər öz qərəzli planlarını reallaşdıra biliblər, nə də bundan sonra çirkin niyyətlərinə nail ola biləcəklər. Çünki Azərbaycanda güclü xalq-iqtidar birliyi var. Heç bir xarici, kənar qüvvəyə Azərbaycanda meydan verməyiblər. Ə.Kərimli, C.Həsənli, Q.Zahid, Emin Milli, Leyla Yunus, Xədicə İsmayıl, Natiq Adilov və bu kimi satıb-satılan ünsürlər həmin xarici qüvvələr tərəfindən bir ələk kimi istifadə olunaraq, kənara atılır. Bu, həmin ünsürlərdir ki, bunu dərk edəndə, artıq bir-birilərini ittiham etməyə başlayırlar. Onda da başlayırlar ağalarına qarşı ittiham irəli sürməyə. Onlar siyasi dairələrin maliyyə dəstəyi ilə Azərbaycana qarşı qarayaxma kampaniyası apardılar, lakin gördülər ki, bunun heç bir nəticəsi yoxdur və özlərinin hansı səviyyədə olduqlarını, necə alətə çevrildiklərini başa düşürlər. Bundan sonra da başlayırlar öz aralarında bir-birinin paxırını açmağa. Bu, belə də olub və olmaqdadır. Çünki onların əsl mahiyyəti alət olmaqdır.

---

# AzerTelecom şirkətinin iştirakı ilə Beynəlxalq Təhlükəsiz İnternet Gününə həsr olunan tədbir

***Azərbaycanı beynəlxalq İnternet şəbəkəsinə bağlayan magistral (backbone) İnternet provayderi AzerTelecom şirkətinin iştirakı ilə STEP Kompüter Akademiyasında "Beynəlxalq Təhlükəsiz İnternet Günü"nə həsr olunan tədbir keçirilib.***

Tədbir ölkəmizdə İnternetin təqdimi və İnternet təhlükəsizliyində ixtisaslaşan bir neçə yerli və beynəlxalq şirkətlərin nümayəndələrinin iştirakı ilə baş tutub, İnternet, onun yaranması, qlobal şəbəkədə təhlükəsizlik, istifadəçilərin üzləşdikləri əsas təhdidlər və s. kimi mövzularda faydalı müzakirələr aparılıb.

Tədbirdə çıxış edən AzerTelecom şirkətinin Baş Kommersiya Direktoru Samir Nuriyev qlobal İnternet şəbəkəsinin yaranması, mövcud texniki göstəricilər, Azərbaycanın İnternet şəbəkəsinə qoşulması və bu prosesdə magistral provayder AzerTelecom şirkətinin rolu, internetin gələcəyi kimi mövzulara toxunub.

Hazırda qlobal internet istifadəçilərinin sayının ümumilikdə 4 milyardı ötdüyünü, Azərbaycanın MDB məkanında İnternetin əhatə olunması, yayımına görə ilk yerdə(79%) olduğunu qeyd edən Samir Nuriyevinternetin gələcəyi barədə danışaraq 2020-ci ildə 5 milyarddan çox insanınİnternetdən istifadə edəcəyini, qlobal şəbəkədən istifadədə ən böyük artımın inkişaf etməkdə olan ölkələrdə olacağını, Bulud texnologiyaların daha da inkişaf edəcəyini, Əşyaların İnternetinin (IoT) İnternet haqqında təsəvvürü dəyişəcəyini və gələcəkdə İnternetin bir ekologiya dostu olacağını bildirib.



Tədbirdə çıxış edən digər məruzəçilər də öz növbələrində İnternetin distribusiyası, simli və simsiz İnternet növləri, şəbəkələr, sistem inzibatçılığı, sosial mühəndislik və fişinq hücumlarına qarşı təhlükəsizlik və s. barədə danışaraq öz təcrübələrini bölüşüblər. Beynəlxlaq Təhlükəsiz İnternet Günü ("Safer Internet Day - SID") hər ilin ikinci ayının ikinci həftəsinin ikinci günü qeyd edilir.Bu əlamətdar hadisə 2004-cü ildə Avropa Komissiyasının qərarı ilə təsis edilib. Məqsəd dünyada, xüsusən uşaq və gənclər arasında onlayn texnologiyalardan daha təhlükəsiz və məsuliyyətli istifadəni təbliğ etməkdir.

Azərbaycanın dinamik şəkildə inkişaf edən telekommunikasiya operatoru olan AzerTelecom 2008-ci ildə təsis edilib və ölkənin ilk mobil operatoru - Bakcell şirkətinin törəmə şirkətidir.AzerTelecom internetin topdan satışı, ayrılmış kanal xidməti, mobil və stasionar telekommunikasiya şəbəkələrində informasiyanın daşınması, beynəlxalq tranzit, SİP telefoniya, FTTx (fiber optik xətt xidməti), Data mərkəz xidmətləri, VPN (virtual şəxsi şəbəkə), DDOS hücumundan müdafiə və digər xidmətlər təqdim edir.

# MULTİKULTURAL MÜHİT VƏ İNSAN HAQLARI

***Qloballaşma prosesi ictimai inkişafın unikal və universal dəyərləri özündə birləşdirən xüsusi bir modelinin - Azərbaycan nümunəsinin get-gedə geniş miqyas almasına təkan verdi. Bəşər ruhunun bu təkrarsız mənəvi dəyərinin bütün dünyada yayılmasında və rəğbət qazanmasında Mehriban xanım Əliyevanın rolu əvəzsizdir.***

O, UNESCO-nun 60 illiyinə həsr edilmiş "Sivilizasiyalararası dialoq" həftəsi çərçivəsində Parisdə keçirilmiş "Azərbaycan: mədəniyyətlərin və sivilizasiyaların qovuşuğunda" adlı tədbirdəki çıxışında demişdir: "Azərbaycan zəngin mədəni irsi və ənənələri ilə fərqlənən qədim diyardır. Azərbaycan əsrlər boyu sivilizasiyalararası dialoqun aparılmasında mühüm rol oynamışdır. Ölkəmiz Şərqlə Qərbin qovuşduğu məkanda yerləşir. 1918-ci ildə Şərqdə ilk demokratik cümhuriyyət, məhz Azərbaycanda yaradılmışdır. Bu, bütün islam aləmində Avropa tipli ilk parlament respublikası idi. Bununla bərabər, islam ölkələri arasında opera, balet, teatr, qadın məktəbləri, azad mətbuat, kişilər və qadınlar üçün bərabər seçki hüququ ilk dəfə, məhz Azərbaycanda formalaşmışdır. Bu gün Azərbaycan Avropa dəyərlərini qəbul edən və getdiyi yolu tam dərk edən müasir ölkəyə çevrilmişdir. Uğurlu inkişafın mühüm amillərindən biri ondan ibarətdir ki, Azərbaycan dünyəvi dövlətdir, yüksək tolerantlığı ilə fərqlənən ölkədir".

Mehriban xanım Əliyeva mədəniyyətin və biliklərin müxtəlif sahələri arasında, Şərq ilə Qərb arasında yeni perspektivli əlaqələr yaradır.

Ölkəmiz hazırda mədəniyyətlərarası dialoq, dünya mədəniyyətlərinin və sivilizasiyaların qarşılıqlı təsiri məkanına uğurla transformasiya olunur, özünün zəngin təcrübəsini dünya ictimaiyyətinə təklif edir. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, bu təcrübənin güclü əsasları vardır. Çünki əsrlər boyu müxtəlif dövrlərdə, müxtəlif ictimai-siyasi quruluşlar çərçivəsində Azərbaycanda bütün xalqlar dözümlülük, tolerantlıq nümayiş etdirmişlər, multikulturalizm şəraitində yaşamışlar. Bu güclü zəmin üzərində Ulu Öndər Heydər Əliyevin düşünülmüş siyasəti nəticəsində müstəqillik dövründə biz bu meyilləri daha da gücləndirdik. Bu gün isə biz öz həyatımızla, öz dünyagörüşümüzlə və öz praktiki addımlarımızla təcrübəmizi dünya birliyinə təqdim edirik.

Ölkəmiz, sözün əsl mənasında, fərqli sivilizasiyaların və mədəniyyətlərin dialoqu və ortaq məxrəc axtardığı məkana çevrilir. Heydər Əliyev Fondunun bu sahədəki fəaliyyəti beynəlxalq aləmdə yüksək qiymətləndirilir. Mehriban xanım Əliyeva tarixi-dini, mədəni abidələrin qorunması və bərpasını daim diqqət mərkəzində saxlayır. Fondun maliyyə dəstəyi ilə Bakıdakı Pravoslav və Müqəddəs Məryəm kilsələrində təmir-bərpa işləri aparılmış, yəhudi uşaqları üçün təhsil və mədəniyyət mərkəzinin tikintisinə dəstək verilmişdir. Göründüyü kimi, Heydər Əliyev Fondu təkcə islam dininə aid tarixi-dini abidələrin bərpasına deyil, eləcə də, digər dinlərə məxsus abidələrin də bərpasına qayğı ilə yanaşır. Bunun növbəti əyani sübutu olaraq Bakıda dinlərarası sivilizasiyaların dialoqunun keçirilməsi, eyni zamanda, Azərbaycan xalqının yüzilliklər boyu formalaşmış tolerantlıq ənənəsinin yüksək səviyyədə olmasının göstəricisidir.

Tolerantlıq nümunəsi sayılan Azərbaycan Heydər Əliyev Fondunun xətti ilə Fransanın Versal sarayında nümayiş etdirilən iki abidənin də bərpasına maliyyə yardımı göstərmişdir. Strasburq şəhərinin meri Rolan Ris Heydər Əliyev Fondunun beynəlxalq miqyasda böyük layihələr həyata keçirməsini humanizm və mədəniyyətlərarası dialoq baxımından böyük rolunu qeyd etmiş, bildirmişdir ki, fondun Strasburq Kafedral kilsəsinin şüşələrinin təmirinə ayırdığı maliyyə yardımını səxavətli bir jest və Azərbaycanın Avropanın mədəni irsinə verdiyi layiqli töhfədir. Cənab Ris demişdir: "Azərbaycan Avropa Şurasının üzvüdür. Azərbaycan öz mədəni irsinə diqqət göstərməklə yanaşı, Avropa mədəni irsinə də diqqət və qayğı göstərir. Orta əsrlərdə xristianlığın ən yüksək kilsəsi olan Strasburq Kafedral kilsəsi də Avropa mədəni irsinin bir parçasıdır. Mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafında fəal iştirak edən Heydər Əliyev Fondu beynəlxalq arenada Azərbaycanın müsbət imicinin formalaşması və təşviqinə böyük diqqət göstərir". Bu fikirlər həm də beynəlxalq ictimaiyyətin fondun və onun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətinə verdiyi qiymət kimi qəbul olunmalıdır.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü, UNESCO-nun və ISESCO-nun dəstəyi ilə 2008-ci il iyunun 10-11-də Bakıda "Gülüstan" Sarayında "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda keçirilən beynəlxalq foruma dünyanın müxtəlif ölkələrindən 300-dən çox nümayəndə, o cümlədən, bir neçə ölkənin birinci xanımları, ISESCO-nun baş direktoru, UNESCO-nun xoşməramlı səfirləri iştirak etmişlər.

Forumda Mehriban xanım Əliyeva bildirmişdir ki, son 15 ildə alimlər və yazıçılar, din xadimləri və siyasətçilər çox sadə səslənən bir suala cavab axtarırlar: dialoq, yoxsa qarşıdurma? Bu problem bir çox beynəlxalq forumların və konfransların əsas mövzusu olmuşdur: "Zənnimcə, hər bir belə toplantı özlüyündə, dialoq olaraq, müxtəlif ölkələrin və mədəniyyətlərin təmsilçilərini bir araya gətirməklə, böyük əhəmiyyət kəsb edir. Belə görüşlər, ən azı, insanların bir-birini daha dərindən tanımasına, fikir və təcrübə mübadiləsinin aparılmasına xidmət edir. Bu gün biz mədəniyyətlər və sivilizasiyalararası dialoq probleminə qadınların gözü ilə baxmalıyıq, qadın mövqeyini qabartmalıyıq. Qadın olan yerdə həmişə səmimiyyət var, sevgi var, məhəbbət var. Qadın olan yerdə düşmənçiliyə, qarşıdurmaya, nifrətə yer yoxdur. Zənnimcə, qadınlar əzəldən bəri dialoq tərəfdarıdırlar. Məhz ona görə qadın potensialı dialoqun möhkəmlənməsində böyük rol oynaya bilər".

ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman Əl-Tüveycri bildirmişdir ki, qadınlar mədəniyyətlərin dialoqunun inkişaf etdirilməsində çox mühüm rol oynayırlar: "Bunun üçün qadınlar, ilk növbədə, savadlı olmalı, mükəmməl təhsil almalıdırlar. Təhsil dedikdə, biz mədəniyyətlərin dialoqundakı dəyərlərə əsaslanan təhsili nəzərdə tuturuq".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın xanımı Əminə Ərdoğan hazırda dünyada baş verən proseslərdə qadınların rolunun artdığını deyərək, qeyd etmişdir ki, cəmiyyətin təkanverici qüvvəsi olan qadınların rolunun daha da artması üçün səylər birləşdirilməlidir.

Rusiya Federasiya Şurası sədrinin müavini Svetlana Orlova forumun mövzusunun aktuallığını xüsusi qeyd edərək, bunun cəmiyyətdə qadınların rolunu dəyərləndirməyənlərə tutarlı cavab olduğunu vurğulamışdır.

Argentina vitse-prezidentinin xanımı Marta Kristina Çerutti de Kobos qızlara və qadınlara qarşı diskriminasiya hallarının qarşısının alınması məqsədilə təhsil sahəsində mövcud imkanları daha da genişləndirməyin zəruri olduğunu söyləmişdir.

ABŞ-ın Con Hopkins Universitetinin professoru Frensis Fukuyama qlobal tendensiyaların inkişaf etdiyi cəmiyyətdə qadınların rolunun artdığını vurğulamış, müxtəlif ölkələrdə qadınlara yanaşmada fərqlərin mövcudluğunu diqqətə çatdırmışdır.

Macarıstanın Təhsil və Mədəniyyət Nazirliyinin beynəlxalq məsələlər üzrə dövlət katibi Katalin Boqyay Azərbaycan və macar xalqları arasında tarixən mövcud olan mədəni əlaqələrdən danışmış, Macarıstanın hər zaman dialoq vasitəsilə digər ölkələrlə mədəni mübadiləyə öz töhfəsini verməyə çalışdığını bildirmişdir: "Mədəni diplomatiya cəmiyyətin özəyini təşkil edir. Bu mənada, mədəniyyətlərarası dialoqun daha da yayılması üçün səyləri birləşdimək lazımdır".

Rusiya Elmlər Akademiyası Sosiologiya İnstitutunun Ailə və gender məsələləri şöbəsinin müdiri Tatyana Qurko demişdir ki, Azərbaycanın Birinci Xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə keçirilən beynəlxalq forum həm bu, həm də digər problemlərin həllində mühüm rol oynayacaq, qadınların rolunun artmasına təkan verəcəkdir.

Böyük Britaniyada nəşr olunan "Şərq Maqazin" jurnalının baş redaktoru Rim Məğribi isə bildirmişdir ki, qadınlar hər zaman mədəniyyətlərarası dialoqda mühüm rol oynamışlar. Lakin tarixən formalaşmış stereotiplər əsasında hərəkət qadınların ailədə davranışına mənfi təsir göstərir. Bu cür tədbirlər mənfi baxışları dəyişdirəcəkdir.

Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun professoru xanım İrina Kudryaşova təhsil sahəsində çalışan qadınların problemlərinə toxunaraq, qeyd etmişdir ki, siyasi dözümsüzlük, münaqişələr elmə və təhsilə mənfi təsir göstərir: "Bunun qarşısını almaq üçün islam dəyərlərinin sosial həyata göstərdiyi təsir Avropa gənclərinə daha geniş şəkildə öyrədilməlidir. İslam dəyərləri bütün cəmiyyətlərin inkişafının təməlini təşkil edə bilər".

ABŞ-ın Corctaun Universitetinin Avrasiya, Rusiya və Şərqi Avropa Tədqiqatları Mərkəzinin direktoru xanım Ancela Stent qadınların sülhə necə nail olunması istiqamətindəki fəaliyyətinə dair tədqiqatlar apardığını qeyd etmiş, qadınların müxtəlif dövlət vəzifələrində çalışmalarının mühüm olduğunu bildirmişdir.

Beynəlxalq forumun yekun sənədi - Bakı Bəyannaməsi qəbul olunmuşdur. Bəyannamədə Azərbaycanın Birinci Xanımı Mehriban Əliyevanın qadınların sivilizasiyalararası dialoqa töhfəsinə həsr olunan forumu keçirmək təşəbbüsü alqışlanmışdır. Bildirilmişdir ki, Bakı Forumu İnsan Hüquqları üzrə Dünya Bəyannaməsinin 60-cı ildönümünə təsadüf edir. Bu da insan hüquqları, mədəniyyət müxtəlifliyi, mədəniyyətlərarası dialoq və gender bərabərliyi arasında əlaqə yaratmaq haqda düşünməyə imkan verir. Bəyannamədə dünya dövlətlərinə münaqişələrin həllində və sülhməramlı proseslərdə qərarların qəbulunda qadınların iştirakının artırılmasına çağırış edilmişdir.

Beynəlxalq səviyyədə tanınmış elmi tədqiqatçıların və mütəxəssislərin iştirakı ilə Bakıda mədəniyyətlərarası dialoqa dair bir neçə möhtəşəm tədbirin, eləcə də, beynəlxalq humanitar forumların keçirilməsi, həmçinin, 2009-cu ildə Bakının "İslam Mədəniyyətinin Paytaxtı" elan edilməsi ilə bağlı qərar da Azərbaycanın birinci xanımının yorulmaz fəaliyyətinin nəticəsidir.

Fondun təşəbbüsü ilə 2011-ci il aprelin 8-də Bakıda keçirilən "Ümumdünya mədəniyyətlərarası dialoq" Forumunda ölkəmizin Birinci Xanımının nitqindən bir neçə məqamı xatırlatmaq istərdik: "Bu gün hər birimiz çox yaxşı dərk etməliyik ki, biz öz ölkəmizin vətəndaşı olmaqla yanaşı, bəşəriyyət adlı bir ailənin üzvüyük. Qloballaşma prosesi hər birimizi böyük və ümumi bir məkanın sakinlərinə çeviribdir. Bu məkanda insanlararası, dövlətlərarası, xalqlararası dialoq, məhz etik normalar və haqq-ədalət prinsipləri əsasında qurulmalıdır. İndi dünyada həm siyasətdə, həm iqtisadiyyatda hökm sürən qanunlar, əfsuslar olsun ki, ədalətdən və etik normalardan çox uzaqdır. Əgər bu gün biz qlobal etika fərziyyəsi təklif ediriksə, - bu, bəlkə də bu gün, bir növ, utopiya kimi səslənir. Lakin gəlin xatırlayaq ki, bəşəriyyətin bugünkü bir çox nailiyyətləri əsasını vaxtilə, məhz utopiya kimi qiymətləndirilən hərəkətlərdən və fikirlərdən götürür. Vaxtilə qadın hərəkatı, genderlik, bərabərlik hərəkatını başlayanda, çoxları bunu perspektivsiz utopiya kimi qiymətləndirirdi. Lakin bu gün bu sahədə əldə edilən nailiyyətlər belə yanaşmanın yanlış olduğunu sübut edir. Biz bu gün qlobal etikadan danışırıqsa, bu, yenə də burada suallar cavablardan çoxdur. Lakin mən əminəm ki, əgər biz sabahı düşünürüksə, gələcək nəsillər qarşısında öz məsuliyyətimizi dərk ediriksə, biz xalqlararası, millətlərarası münasibətləri, məhz etika və ədalət platformasında qurmağa çalışmalıyıq".

"Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda Beynəlxalq Bakı Forumu sivilizasiyalararası dialoq, fərqli mədəniyyətlər arasında ortaq təmas nöqtələrinin tapılması, ümumbəşəri konsolidasiya prosesində qadınların rolunun araşdırılması, bu yönümdə konkret fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Avropa Şurasına üzv dövlətlərin gender bərabərliyinə həsr olunmuş VII konfransının Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2010-cu ilin mayında Bakı şəhərində keçirilməsi müstəqil Azərbaycanın gender siyasəti sahəsində mühüm nəticələrə imza atmış sivil dövlətlər sırasında olduğunu göstərmişdir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Səs
Son səhifə 15 fevral

## Roma Papası Neapola səfər edəcək


Papa Francesco sarà a Napoli il 21 giugno 2019. Il Santo Padre parteciperà ad un convegno dedicato a San Luigi nella Pontificia Facoltà Teologica di via Petrarca. Stabilito il programma ufficiale della visita: arrivo a Napoli alle 9 e ripartenza per il Vaticano alle ore 15.00

Ad annunciarlo, nel corso di un incontro con i giornalisti, il cardinale di Napoli, Crescenzio Sepe ed il padre Gesuita Pino Di Luccio, vice preside della sezione San Luigi della Facoltà Teologica.

Al momento non sono previste altre tappe. Papa Francesco celebrò messa a Napoli in piazza del Plebiscito il 21 marzo 2015 per poi attraversare la Rotonda Diaz e Secondigliano e recarsi al Duomo.

APPROFONDIMENTI

Papa Francesco a Napoli, de Magistris: "Una giornata storica per la città"

Papa Francesco, un anno dopo: "Ho nostalgia di Napoli"

Roma Papası Fransisk iyunun 21-də İtaliyanın 3-cü böyük şəhəri sayılan Neapola səfər edəcək. AZƏRTAC İtaliyanın "napolitoday.it" saytına istinadla xəbər verir ki, bu barədə Neapolun baş yepiskopu məlumat yayıb.

Papa Neapolda ilahiyyat mövzusunda keçiriləcək tədbirdə çıxış edəcək. Vatikanın mətbuat xidmətinin verdiyi məlumata görə, Papa Fransisk tədbirdə Aralıq dənizi ölkələri üzrə ilahiyyatın tədrisindən danışacaq.

## Yaponiyada eyni anda 10 dili anlayan sistem yaradılıb



"Mitsubishi Electric" şirkətinin tədqiqatçıları eyni anda 10 dili anlayan sistem hazırlayıblar. AZƏRTAC xəbər verir ki, yeni sistemin həm turizm, həm də digər sahələrdə istifadə edilməsi nəzərdə tutulur. Yeni texnologiya müxtəlif dilləri hər bir şəxsin səsinə və leksikonuna uyğun olaraq başa düşmək üçün süni intellektdən istifadə edir. Şirkətin mütəxəssisləri sistemdən əməli işdə istifadə etməmişdən əvvəl onun dəqiqliyini daha da təkmilləşdirmək niyyətindədirlər.

## Bəşər tarixində ən varlı insanın adı açıqlanıb



Alimlər ictimaiyyətə orta əsrlərə aid "Kataloniya atlası" əlyazmasını təqdim ediblər. "Live Science"ın məlumatına görə, əlyazmada Yerin mərkəzində tarixdə ən varlı insan təsvir edilib. AZƏRTAC "Rossiyskaya qazeta"ya istinadla xəbər verir ki, XIV əsrə aid nadir atlas ABŞ-ın Şimal-Qərb Universitetinin İncəsənət Muzeyində açılan sərgidə təqdim edilib. 1375-ci ildə Aralıq dənizinin Mayorka adasında tərtib edilən xəritədə Afrikanın orta əsrlərdə nəhəng sərvətindən və nüfuzundan danışılır. Xəritədə tarixdə ən varlı insan hesab edilən Mali imperiyasının hökmdarı Mansa Musa təsvir edilib. O, regionda qızıl hasilatına bütünlüklə nəzarət edib. Həmin dövrlərdə isə Mali qızılı ən təmiz idi və ona böyük tələbat vardı. "Bu gün kiminsə onun qədər var-dövlətə sahib olmasını təsəvvürə gətirmək çox çətindir. İmperiyasının bütün sərvətləri Musa üçün əlyetərli idi", - deyə muzeyin əməkdaşı Bikford Berzok bildirib.

Mali qızılı, xüsusən XIV əsrdə hakim mövqe tutan valyutanın - dinarların zərb edilməsində istifadə olunurdu. Həmin sikkələrin məhz Musanın qızıllarından kəsilməsi bu yaxınlarda şifri açılmış o dövrün ərəb mətnlərində aşkar edilib. Musa tarixdə qızılın qiymətini təkbaşına nizamlayan yeganə insan hesab olunur. Onun 1324-1325-ci illərdə Məkkədə Həcc ziyarətini necə icra etməsi barədə əhvalat məlumdur. Hökmdar yolboyu yoxsullara çoxlu qızıl paylayıb və böyük məbləğdə vəsaitə mallar alıb. Bu, o dövrdə iri şəhərlərdə qızılın devalvasiyasına gətirib çıxarıb.

## İki şahmatçımız dünya çempionatında iştirak etməyəcək



Martın 5-də Qazaxıstanın paytaxtı Astanada start götürəcək komandalararası dünya çempionatı üçün Azərbaycanın kişi şahmatçılardan ibarət milli komandasının heyəti açıqlanıb. Yarışda Şəhriyar Məmmədyarov və Teymur Rəcəbov çıxış etməyəcək.

Bu, hər iki qrossmeysterin FIDE Qran Prilərinə hazırlaşmaları ilə əlaqədardır. Əvəzində, mundialda Arkadi Naydiç, Rauf Məmmədov, Qədir Hüseynov, Eltac Səfərli və Nicat Abbasov mübarizə aparacaq. Onlar yeni kapitan Cahangir Ağarəhimovun rəhbərliyi altında çıxış edəcəklər.

Qeyd edək ki, yarışa Çin, İran, ABŞ, Misir, Rusiya, Polşa, Böyük Britaniya, Qazaxıstan və Hindistan yığmaları da qatılacaq. Martın 14-dək davam edəcək 9 turluq dünya çempionatı Astana Beynəlxalq Maliyyə Mərkəzində təşkil olunacaq

## Norveçli atlet 1500 metr məsafəyə qaçış üzrə Avropa rekordunu yeniləyib



Norveçli atlet Yakob İnqebriqtsen 1500 metr məsafəyə qaçış yarışında yeni rekord müəyyənləşdirib. Azərbaycan Atletika Federasiyasının saytında yer alan məlumata görə, 18 yaşlı atlet Cənubi Afrika Respublikasındakı dördaylıq məşq prosesindən sonra qatıldığı "Nordenkampen" yarışında 1500 metr məsafəni 3 dəqiqə 36 saniyəyə qət edərək maksimum xal toplayıb. Bu, Avropada 20 yaşadək atletlər arasında yeni rekorddur. O, həmçinin böyük qardaşı Henrik İnqebriqtsenə məxsus olan Norveç qış rekordunu (3 dəqiqə 39 saniyə) da yeniləyib. Yakob İnqebriqtsen ötən il Berlində keçirilən atletika üzrə Avropa çempionatında 1500 və 5000 metr məsafələrə qaçış yarışlarının qalibi olub.

## UEFA-dan "Real"ın qapısına vurulan qolun ləğvi ilə bağlı açıqlama



UEFA Çempionlar Liqasında ilk dəfə tətbiq olan VAR sistemi sayəsində ləğv edilən qolla bağlı rəsmi izahat yayımlayıb. ÇL-in rəsmi "Tvitter" səhifəsində yer alan məlumata görə, Çempionlar Liqasının 1/8 finalında "Ayaks"ın futbolçusu Nikolas Talyafikonun "Real"a qarşı matçın (1:2) 38-ci dəqiqəsində, hesab 0:0 olarkən vurduğu qolun ləğvi ilə bağlı bildirilib: "Talyafikonun qolu videotəkrara baxışdan sonra ləğv edilib. Hakim müəyyən edib ki, Talyafiko Tadiriçin ötürməsi zamanı oyundankənar vəziyyətdə idi və qapıçı Tibo Kurtuanın topa oynamağına mane olmuşdu. Hər şey VAR qaydalarına uyğun olaraq edilib və doğru qərar verilib".

Qeyd edək ki, "Ayaks"ın baş məşqçisi Erik ten Haq oyundan sonra qolun ləğvinin yanlış qərar olduğunu bildirib.

## Kuarejma mövsümün sonunadək "Beşiktaş"da qalacaq



Rikardu Kuarejma cari mövsümün sonunadək İstanbulun "Beşiktaş" futbol klubunda qalacaq. "Fanatik" saytının yazdığına görə, bunu "Beşiktaş"ın vitse-prezidenti Serdal Adalı bildirib. Kuarejma vitse-prezidentlə görüş zamanı bu mövsümün sonunadək "Beşiktaş"da qalmaq istədiyini və komandası ilə çempion olmaq arzusunda olduğunu qeyd edib.

Otuz beş yaşlı portuqaliyalı hücumçunun adı fevralın 15-də "Malatyaspor"la oyun üçün əsas heyətdə yer alıb. Hücumçu cari mövsümdə İstanbul təmsilçisinin heyətində keçirdiyi 24 oyunda 3 dəfə fərqlənib.

**ELAN**

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat-informatika ixtisası üzrə IV kurs tələbəsi Məlikova Səkinə Şirinbala qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**BAŞSAĞLIĞI**

"Səs" Media Qrupunun rəhbəri Bəhruz Quliyev kollektiv adından Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradova qardaşı

Zakir Muradovun

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin.***

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**